

Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan Prezidenti Çində dövlət səfərindədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfərinə gəlib. Pekin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Çin Xalq Respublikasının nəqliyyat naziri Liu Vey və digər rəsmi şəxslər qarşılayıblar**




YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

23 aprel 2025-ci il, çərşənbə

№ 067 (6895)

Qiyməti 60 qəpik


# Sülh, inkişaf, bərabər hüquqlar, ədalət, demokratiya və azadlıq uğrunda...



Bax səh. 4

# İqtisadi münasibətlərdə yeni dövr

## Bakı və Pekin regionda dayanıqlı rifahın və çoxtərəfli əməkdaşlığın yeni sağlam təməllərini yaradır

Bax səh. 3

# Heç kim unudulmur, heç nə yaddan çıxmır

Bax səh. 3

## Hesablama Palatası parlamentdə hesabat verdi



Bax səh. 5

## “Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır”

Aprelin 22-də “Konstitusiya və Suverenlik İli” çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Xətai rayon təşkilatı və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır” mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Xətai rayonu ərazisində yerləşən abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra Zəfər parkı ziyarət olunub.

YAP Xətai rayon təşkilatının qərargahında keçirilən tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunmasının əhəmiyyətindən danışıb. R.Mirzəyev bildirib ki, bu il müstəqil Azərbaycanın ilk Konstitusiyanın qəbul edilməsinin 30, Vətən müharibəsində tarixi Zəfərin qazanılmasının 5 ili tamam olur. Onun sözlərinə görə, möhtəşəm Qələbənin əldə edilməsində gənclərin müstəsna rolu var. Bu da onların vətənpərvərlik ruhunda formalaşmasından irəli gəlir.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva bildirib ki, gənclər siyasəti Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin əsas...

Bax səh. 4

## Erməni saxtakarlığı ifşa edilir



Bax səh. 5

## ÇXR və Azərbaycan: rəsmi strateji tərəfdaşlar...

### İkitərəfli münasibətlərdə yeni səhifə

Bax səh. 2

## Harvard Universitetinin cavabı...

### Təhsil müəssisəsi Tramp administrasiyasını məhkəməyə verib

Bax səh. 7

## Dəmir yoluna “yaşıl maliyyə”

### Asiya Bankı nəqliyyatda karbon emissiyasının azaldılmasına dəstək verəcək

Bax səh. 6

## Viran vücuddan qaçış

### Akutaqava Rünoskenin həyatıyla sənətinin qovuşağında

Bax səh. 7

## Fransadan daha bir anti-demokratik addım...




Bax səh. 6

## Aİ Macarıstana niyə qəzəblidir?



Bax səh. 6

# Azərbaycan ilə Çin arasında energetika sahəsində bir sıra sənədlər imzalanıb



**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkəmizin Energetika Nazirliyi ilə Çin şirkətləri arasında bir sıra sənədlər imzalanıb.**

**AZƏRTAC xəbər verir ki, imzalanmış sənədlər arasında “Azərbaycan Respublikasının Hökuməti və “Universal Solar Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında 100 MVt gücündə Qobustan Günəş Elektrik Stansiyası Layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi”, “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə “China Energy Overseas Investment Co. Ltd.” şirkəti arasında Azərbaycan Respublikasında dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi”, “Azərbaycan Respublikasının Energetika Nazirliyi, “China Datang Overseas Investment Co. Ltd” və “SOCAR Green” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən Günəş Elektrik Stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi, “Azərbaycan Respublikasının Energetika Nazirliyi, “PowerChina Resources Limited” və “SOCAR Green” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 160 MVt gücündə Günəş Elektrik Stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi (mübadilə ediləcək)”, Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında “Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması”na dair Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Energetika Nazirliyi, “SOCAR Green” Məhdud Məsuliyyətli Cəmiyyəti, “China Datang Overseas Investment Co. Ltd” və “PowerChina Resources Limited” arasında Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin inkişafına dair Anlaşma Memorandumu” yer alıb.**

# ÇXR və Azərbaycan: rəsmi strateji tərəfdaşlar...

## İkitərəfli münasibətlərdə yeni səhifə

Son illər Cənubi Qafqazın inkişaf trayektoriyası beynəlxalq aləmin, xüsusilə böyük iqtisadi-siyasi güc mərkəzlərinin diqqətindədir. Azərbaycanın bölgədə formalaşdırdığı yeni reallıqlar və bu reallıqların nəticə etibarı ilə yeni nizama verdiyi töhfələr təqdir edilir. Təsadüfi deyil ki, dünyanın aparıcı siyasi-iqtisadi mərkəzləri, dövlətləri və təşkilatları Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını həm əyani surətdə bildirir, həm də apardıqları siyasətlə nümayiş etdirirlər.

Azərbaycan isə regional təhlükəsizliyə verdiyi töhfələrlə gələcək iqtisadi-siyasi nizamın dayaqlarını daha da möhkəmləndirir. Şərq-Qərb tranziti üzrə ən mühüm logistik mərkəz olaraq Azərbaycan qlobal ticarətin inkişafına, siyasi inteqrasiyanın keyfiyyətinə xüsusi rəng qatır. Bu mənada, Azərbaycanın bölgənin ən mühüm güc mərkəzlərindən biri sayılan Çin ilə əlaqələri mühüm əhəmiyyətə malikdir.



### Əməkdaşlığımız genişlənir

Etiraf edilməlidir ki, Çin yaşadığımız əsrdə qlobal güc mərkəzi kimi özünün iqtisadi, demoqrafik potensialı ilə çoxqütblü dünyanın mühüm siyasi aktorudur. Rəsmi Pekin müstəqil xarici siyasət kursuna malik olan milli dövlətlərin əməkdaşlıq etmək istədiyi lokomotiv ölkələrdən sayılır - Avrasiya geoməkanında, xüsusilə də Azərbaycanın mühüm təsir imkanları yaratdığı Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya bölgəsi üzrə ikitərəfli və çoxtərəfli səciyyə daşıyan qarşılıqlı-faydalı əməkdaşlıq münasibətlərinin formalaşmasında Çin faktoru xüsusi əhəmiyyətə malikdir. Azərbaycan ilə əlaqələr isə yüksələn xəttlə inkişaf edir. Ötən ilin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə Toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə”nin imzalanması isə bu ikitərəfli əlaqələrə yeni bir nəfəs bəxş etdi - müasir Çin - Azərbaycan əlaqələrinin komponentləri hazırkı dövrün siyasi-iqtisadi aktuallığı ilə yanaşı, həm də gələcək perspektivi də özündə cəmləyəcək. Çinin Azərbaycana münasibətdə strateji tərəfdaş yanaşması bizə həm siyasi, həm də iqtisadi perspektivdə mühüm dividendlər vəd edir. Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində bildirib ki, Birgə Bəyannamədə xüsusi olaraq qeyd edildi ki, 1992-ci il aprelin 2-də diplomatik münasibətlərin qurulduğu andan sonra ikitərəfli əməkdaşlığımız bir çox səmərəli nəticə verib: “Bununla yanaşı, biz razılaşdıq ki, əməkdaşlığı gələcəkdə də genişləndirək, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirək, iki ölkənin ümumi maraqlarını birlikdə müdafiə edək, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə təşviq edək”.

### Strateji tərəfdaşlığımızın əsas prinsipləri...

Vurğulandığı kimi, bu sənəd Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında mühüm bir deklorasiya sayılır - bəyannaməyə nəzər saldıqda, iki ölkə arasındakı münasibətlər sisteminin bütün sferasını əhatə etməsi diqqəti cəlb edir. Burada siyasi - iqtisadi bloklar, ikitərəfli münasibətlərin möhkəmlənməsi, beynəlxalq münasibətlər sisteminə baxış, qlobal proseslərdə əməkdaşlıq, maraqların uzlaşdırılması, qarşılıqlı şəkildə dövlət mənafeyinin qorunması və ən əsas təhlükəsizlik kimi strateji məqamlar yer almaqdadır. Çinin Azərbaycana münasibətdə strateji tərəfdaş yanaşması bölgənin ümumi inkişafı baxımından böyük əhəmiyyətə malikdir - bu, ötən dövrdə xüsusi müzakirə predmeti olan əməkdaşlığın detallarında da özünü əks etdirir.

Paralel olaraq, hər iki dövlət beynəlxalq və regional vəziyyətin tektonik və mürəkkəb inkişafı fonunda siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə irəliləmməyə dair razılıq əldə edib - sənəddə bildirilir ki, hər iki ölkə ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət, hücum etməmək, daxili işlərə qarışmamaq, bərabərlik, qarşılıqlı fayda və dinc birgəyaşayışa sadiqliyi təsdiqləyirlər. Azərbaycan tərəfi “Vahid Çin” prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır, istənilən formada “Tayvanın müstəqilliyi”nə qarşı qətiyyətlə çıxış edir və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, habelə Çin hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir. Çin tərəfi də öz növbəsində Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir. Bununla bağlı dövlət başçısı deyib: “Birlikdə bəyan etdik ki, bizim strateji tərəfdaşlığımız qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıq kimi ikitərəfli münasibətlərin əsas prinsipləri üzərində qurulacaq. Birgə Bəyannamədə, həmçinin təsdiq etdik ki, biz bir-birinin suverenliyinə və ərazi bütövlüyünə layiqli hörmətlə yanaşan, daxili işlərə qarışmamaq və dinc yanaşı yaşamaq prinsiplərindən irəli gələn müstəqil xarici siyasət yürüdən vacib və etibarlı tərəfdaşlarıq”.

### Dövlətlərarası münasibətlərin dərinləşməsi üçün əlavə impuls...

Beləliklə, Çin bir daha Azərbaycanın bölgədəki vaciblik indeksini əyani şəkildə təsdiqləmiş oldu. Pekinin Azərbaycana yanaşmada strateji tərəfdaş strategiyası nümayiş etdirməsi həm bölgə, həm də bütün qlobal məkan üçün mühüm mesajdır - imzalanan bəyannamə isə söylənilənlərin faktoloji təsdiqidir. Dünyanın ən mühüm iqtisadi güc mərkəzlərindən, BMT TŞ-nın aparıcı üzvlərindən, qlobal siyasi münasibətlər sisteminin əsas oyunçularından, nəhayət, bölgənin iqtisadi-ticari imkanlarının şaxələndirilməsində açar rolunu oynayacaq ölkələrdən biri Azərbaycanın strateji tərəfdaşına çevrilib. Öz növbəsində, Çin də Cənubi Qafqazın ən güclü aktoru olan, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verən Azərbaycanla əməkdaşlığa xüsusi əhəmiyyət verir. Bu, Pekinin Bəyannamə ilə bağlı mövqeyində də açıq görünür. Üst-üstə düşən maraqlar, uzlaşan mövqelər, yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri bütün sahələr üzrə danışıqların və razılaşmaların dinamik xarakter almasını şərtləndirir. Nəticə etibarı ilə bu tərəfdaşlıq mühüm və gələcək prioritetlərin müəyyənləşməsində, icra olunmasında əsaslı rola malik olacaq. Prezident bildirib ki, bizim Astanadakı görüşümüz və onun yekunlarına dair qəbul edilən Birgə Bəyannamə tarixi hadisədir və Azərbaycan-Çin münasibətlərində yeni səhifə açır: “ÇXR-in Sədri Si Cinpin ilə ikitərəfli görüş əsnasında çıxışımda qeyd etdim ki, qəbul olunan Bəyannamə ÇXR və Azərbaycanı rəsmi strateji tərəfdaşlara çevirir və bu, böyük nailiyyət, böyük məsuliyyətdir. Astanada görüşümüz zamanı mən Çinə dövlət səfərinə dəvət olundum və bu dəvəti məmnunluqla qəbul etdim. Mən də ÇXR-in Sədrini onun üçün uyğun olan vaxtda ölkəmizə səfərə dəvət etdim. İnanıram ki, yüksək səviyyədə belə səfərlər mübadiləsi dövlətlərarası münasibətlərimizin dərinləşməsi prosesinə əlavə impuls verəcək”.

*Pərviz SADAYOĞLU*

# Heç kim unudulmur, heç nə yaddan çıxmır

Bəşəriyyət tarixinin ən qanlı səhifələrindən olan İkinci Dünya müharibəsində qəhrəmanlıqla vuruşaraq həyatlarını itirən soydaşlarımızın əziz xatirəsi qəlbimizdə yaşayır və bundan sonra da yaşayacaq. Heç kim unudulmur və heç nə yaddan çıxmır. Bu günlərdə Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb. Bəhs olunan sərəncam müvafiq kateqoriyadan olan vətəndaşların daim yüksək diqqət və qayğı ilə əhatə olunduqlarını bir daha təsdiq edir.

## Birdəfəlik maddi yardım ödəniləcək

Birdəfəlik maddi yardımların verilməsi üçün sərəncamla Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentinin ehtiyat fondundan 3,2 milyon manat vəsait ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən "Yeni Azərbaycan"a verilən məlumata görə, sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2500 manat birdəfəlik maddi yardım ödəniləcək.

İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1250 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Sərəncamın ümumilikdə 2469 şəxsə şamil olunacağı gözlənilir və onlardan 21-i İkinci Dünya müharibəsi iştirakçısıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik maddi yardımlar İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.



İldırım süətli müharibə planında neft Bakısının ələ keçirilməsinə xüsusi diqqət yetirilmişdi. Təsadüfi deyil ki, Hitlerə təqdim edilən bayram tortunun üzərində "Xəzər dənizi" sözləri yazılmışdı. Əgər neft Bakısı işğala məruz qalsa idi, müharibənin yekunu tamam fərqli ola bilərdi.

Ancaq xoşbəxtlikdən bu, baş vermədi. Keçmiş ittifaqda ön və arxa cəbhənin fədakarlığı sayəsində ümumi düşmən üzərində qələbə təmin edildi. İkinci Dünya müharibəsində cəbhə xətti Azərbaycandan uzaqdan keçsə də, respublikamız ümumi qələbənin təmin olunmasına və faşizmin süqutuna sanballı töhfələr verib. Müharibənin elə ilk günlərindən bütün Azərbaycan cəmiyyəti düşmənə qarşı mübarizəyə köklənib. Müharibə illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və fədakarlıq nümunələri göstərib.

## Azərbaycanın oğul və qızlarının fədakarlığı

Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılıb. Azərbaycanın 700 mindən çox igid oğlu və qızı cəbhəyə yollanıb. Respublikamızı təmsil edən diviziyalar Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçərək düşmənə sarsıdıcı zərbələr vurublar. Həmvətənlərimizin 130 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. Azərbaycandan olan 170 min əsgər və zabit keçmiş SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunub. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz şücaətləri ilə xalqımızın tarixinə yeni qəhrəmanlıq səhifələri yazıblar...

Həmçinin İkinci Dünya müharibəsi illərində respublikamızda arxa cəbhənin fədakarlığı da minnətdarıq hissi ilə anılır. Respublikamızda qısa müddətdə iqtisadiyyatı cəbhəyə xidmət istiqamətinə yönəltmək məqsədi ilə böyük işlər aparıldı. Bakı, sözün əsl mənasında, döyüşən ordu üçün silah-sursat istehsalı mərkəzinə çevrilmişdi. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz qəhrəmanlıq və fədakarlıq göstərir, cəbhəni və sənayeni yanacaqla təmin edirdilər. 1941-ci ildə respublikamızda 23,5 milyon ton "qara qızıl" çıxarılmışdı. Bu, SSRİ-də çıxarılan bütün neftin 71,4 faizini təşkil edirdi. Bütövlükdə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları veriblər. Statistik məlumatda bildirilir ki, müharibə illərində keçmiş ittifaqda hər beş təyyarədən, tankdan və avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyib...

*Mübariz FEYİZLİ*

# İqtisadi münasibətlərdə yeni dövr

## Bakı və Pekin regionda dayanıqlı rifahın və çoxtərəfli əməkdaşlığın yeni sağlam təməllərini yaradır

**Azərbaycan və Çin arasında dostluğun kökü tarixi İpək Yolundan başlayır. Hazırda Azərbaycan Cənubi Qafqaz regionunda söz sahibi olan lider dövlət, Çin isə Asiyanın və dünyanın iqtisadi güc mərkəzlərindən biridir. Siyasi-iqtisadi amillər, nəqliyyat-tranzit qovşaqları, geosiyasi amillər və digər mühüm faktorlar hər iki ölkəni bir sıra ortaq baxış və strateji maraqlar bucağında tamamlayır. Prezident İlham Əliyevin ötən illərdə Çinə səfərləri ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsinə səbəb olub.**

**BMT-nin 5 daimi üzvündən biri olan Çin Xalq Respublikası hər zaman Azərbaycanın ərazi bütövlüyünü və sərhəd toxunulmazlığını dəstəkləyib, hazırda öz dövlət suverenliyini tam bərpa etmiş ölkəmizin azad olunmuş torpaqlarında ən çox fəal olan investorlar arasında Çin şirkətləri xüsusi yer tutur. Azərbaycan da Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəkləyib. Bir müddət əvvəl Tayvanda keçirilən seçkilərə respublikamızın rəsmi mövqeyi və bu seçkilərin pislənilməsi Çinin ərazi bütövlüyünə bir daha dəstəyi ifadə edib.**

### İpək Yolu etibarlı iqtisadi kəmərə çevrilir

Prezident İlham Əliyev Çinin "Sinxua" agentliyinə müsahibəsində Azərbaycan-Çin münasibətlərinin yaxın dostluq və strateji tərəfdaşlıq ruhunda daha da möhkəmləndiyini, yeni imkanlar bloku üzərində əməkdaşlığın zirvəyə çatdığını bildirib. Dövlətimizin başçısı Azərbaycanın Çinin müəllifi olduğu "Kəmər və yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olduğunu, 2015-ci ildə Çinə səfəri zamanı iki ölkə arasında "İpək Yolu İqtisadi Kəməri"nin reallaşdırılmasına dair Anlaşma Memorandumunun imzalandığını xatırladaraq genişşaxəli hazırda bölgədə nəqliyyat-logistika arxitekturası formalaşdığını diqqətə çatdırıb. Ölkəmiz bu global layihənin reallaşmasına istər öz ərazisində, istərsə də onun hüdudlarından kənarda Çindən sonra daha çox investisiyalar qoyan ikinci səhmdar kimi öz təşəbbüskarlıq iradəsini nümayiş etdirib, digər coğrafiyaları da bu dəhlizə cəlb edib. Asiya və Xəzəryanı ölkələri vahid logistika habında- Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (Orta Dəhliz) birləşdirib. Həmin dəhlizin əsas şaxələri olan Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi, Orta Dəhliz, həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Kəmər və yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması bu nəqliyyat arteriyyasında daşınmaların həcminin sürətlə artmasına səbəb olmaqdadır. Təkcə Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb. Digər ölkələrin bu nəqliyyat ailəsinə qoşulması isə daşınmaların qat-qat böyüməsi üçün yeni perspektivlər açır.

Özünün əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan ərazisindən keçən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir.




### Cənubi Qafqazda birinci tərəfdaş

Azərbaycan və Çin arasında iqtisadi təmasların dinamizmi də olduqca böyükdür. Ölkələr arasında iqtisadi-ticarət dövriyyəsi son 10 ildə ən yüksək səviyyəyə çatıb. Belə ki, 2015-ci ildə isə qarşılıqlı mal dövriyyəsinin həcmi 500 milyon dollar idisə, 2024-cü ildə iki ölkələr arasında əmtəə dövriyyəsinin həcmi əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb.

Bu ticari balans dinamikası 2025-ci ilin birinci rübündə bir qədər də artıb və ötən ilin eyni dövrünə nisbətən 37 faiz çoxalaraq 1,02 milyard dollar təşkil edib. Beləliklə, Çin Cənubi Qafqazda Azərbaycanın birinci iqtisadi-ticari tərəfdaşı olmaqla bu bölgənin cəmi ticarət mübadiləsinin 70 faizə yaxınını Azərbaycanla həyata keçirir.

### İnamlı sərmayə tərəfdaşlığı

Çin, eyni zamanda, Cənubi Qafqazda ən çox sərmayələri Azərbaycana yönəldib. Bu Asiya nəhənginin ölkəmizə yatırdığı investisiyaların həcmi 942 milyon dollara çatıb. Həmin sərmayələrdən başqa, Çin şirkətləri ölkəmizdə müxtəlif sahələrdə iri layihələr icra edib. Son 20 ildə ölkəmizdə 21 min kilometr avtomobil yolları salınıb və təmir edilib, 335 körpü və yolayrıcı, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib. Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə böyük işlər görülüb, 1500 kilometrdən artıq dəmir yolu tikilib və 1800 kilometrlik sahə təmir edilib.

Eyni zamanda, Azərbaycan özü də potensial sərmayədar dövlət kimi Asiyanın maliyyə sektorunda öz mövqeyini gücləndirir və Dövlət Neft Fondunun investisiya portfelinin 2,1 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə etməkdədir.

Bu gün Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb, onlardan 298-i ölkəmizdə aktiv fəaliyyət göstərir. Hazırda Azərbaycanla Çin arasında qeyri-neft sektorunda, xüsusən yüksək texnologiyalara və innovasiyalara, alternativ və bərpaolunan energetikaya yönəlmiş birbaşa investisiyaların cəlb olunması sahəsində birgə əməkdaşlığın perspektivlərinə dair danışıqlar aparılır.

İmkanlar isə daha böyükdür. Bu məqsədlə tərəflər dayanmadan intensiv şəkildə iqtisadi dialoq və qarşılıqlı biznes tədbirləri təşkil edir, investisiya və ticari təşviqləri artıran təşəbbüslərlə çıxış edir. Ötən il Azərbaycan və Çin arasında imzalanmış Strateji Tərəfdaşlıq Bəyannaməsinin əsas hədəflərindən biri olan ticarət-iqtisadi və investisiya əlaqələrinin daha da artırılması üçün hökumət-biznes görüşləri ardıcıl xarakter almağa başlayıb.

### Ticarət evləri - ixracın körpüsü

Tərəflər arasında iqtisadi-investisiya təmaslarının artmasında ticarət evləri və ixrac missiyaları, biznes-forumları da mühüm əhəmiyyət kəsb edir. Çinin şəhərlərində Azərbaycan ticarət evləri yaradılıb, Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində fəaliyyət göstərir. Onlar ikitərəfli ticari münasibətlərimizin inkişafına sanballı töhfə verir. Azərbaycan Ticarət Evi, həmçinin Çində tanınmış beynəlxalq "JD" onlayn ticarət platformasında yaradılıb. Azərbaycan xalçaları, nar şirələri və başqa yüksəkkeyfiyyətli məhsullar isə minlərlə çinli ailənin evinə daxil olur. Yeni "Ticarət evləri"nin açılması nəzərdə tutulur. Burada "Made in Azerbaijan" rəflərinin təşkili yerli qeyri-neft məhsullarının vahid brend ilə dünyada tanıdılması və təşviq edilməsi baxımından ən təsirli ixrac ideyası sayıla bilər.



### Yeni hədəf və imkanlar

Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin gələcək inkişafından, onların keyfiyyətcə yeni məzmunla zənginləşməsindən gedir. Bu prosesdə Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının iclasları mühüm rol oynayır. Eyni zamanda, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO), Azərbaycanın Çin Xalq Respublikasındakı ticarət nümayəndəliyinin, Çinin Milli İnkişaf və İslahat Komissiyasının (NDRC) və Çin Beynəlxalq Əməkdaşlıq Mərkəzinin sənaye və investisiya layihələrinin birgə icrasında, yeni iqtisadi təşviqlərin səfərbər olunmasında fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir.

Beləliklə, Azərbaycan və Çin arasında ikitərəfli münasibətlərin inkişafı regional və qlobal səviyyədə yeni imkanları səfərbər etməklə, nəhəng bir coğrafiyada rifah və əməkdaşlığın möhkəmlənməsində əsaslı rol oynayacaq.

*E.CƏFƏRLİ*

# Sülh, inkişaf, bərabər hüquqlar, ədalət, demokratiya və azadlıq uğrunda...

## Qlobal Cənubun daha dayanıqlı, ədalətli və təhlükəsiz dünya nizamı qurulmasında iştirakı təbii prosesdir

## Çin ilə Azərbaycan bəşəriyyətin ortaq taleyi cəmiyyətinin yaradılmasına kömək etmək səylərini bəyan edir...

Yeni siyasi-iqtisadi nizamın yaradıcı və istiqamətləndirici komponentləri arasında bərabərtərəfli əməkdaşlıq, beynəlxalq hüquqa hörmət, qlobal təhlükəsizliyin təmininə töhfə, regional maraqların müdafiəsi kimi aparıcı ünsürlər xüsusi əhəmiyyət daşıyır. Dövlətlər və təşkilatlar üçün strateji əməkdaşlıq düsturu sayılacaq bu tezislər bütövlükdə geosiyasi mənzərəni aydınlığa qovuşdurur: formalaşan yeni reallıqların "siyasi premyerası" qismində qəbul edilən əməkdaşlıqlar qısa zaman kəsiyində oturuşmuş ikitərəfli əlaqələrə çevrilir və özlüyündə yeni nizamın mühüm bir parçası kimi qəbul olunur. Bu münasibətlər isə paralel olaraq həm siyasi, həm də iqtisadi meyarları ən üst səviyyəyə qaldırır.

### Əlaqələrin daha da möhkəmlənməsi üçün münbit şərait...

Etiraf edilməlidir ki, Avrasiyanın mərkəzində yeni nizam strukturlaşması 2020-ci il Vətən müharibəsinin nəticələri ilə aydınlığa qovuşdu. Başqa sözlə, Qərb ilə Şərqi, Şimal ilə Cənubu həm siyasi, həm də iqtisadi tellərlə bir-birinə bağlayan Cənubi Qafqazda Azərbaycanın diqtəsi ilə yaradılan təhlükəsizlik arxitekturası əlaqələrin daha da möhkəmlənməsi üçün münbit şərait yaratdı.

Azərbaycanın qazandığı hərbi-siyasi qələbə Cənubi Qafqazla yanaşı Mərkəzi Asiyanın, Çin-Qərb münasibətlərinin, Qlobal Cənubun gələcək perspektivi üçün yol açdı. Daha doğrusu, Cənubi Qafqazda Azərbaycanın formalaşdırdığı təhlükəsizlik mühiti Şərq-Qərb tranziti baxımından mühüm yolların aktuallaşması üçün zəmin formalaşdırdı. Bu isə öz növbəsində yeni əməkdaşlıq, yeni əlaqələr və yeni münasibətlər demək idi. Bu gün Azərbaycanın və Çinin timsalında Qlobal Cənubun aparıcı aktorları qarşılıqlı inteqrasiyasının mühüm bir coğrafiyada yeni iqtisadi əməkdaşlıq mühiti üçün nə qədər vacib olduğunu ortaya qoyurlar. Xəzərin şərq sahili ilə qərb sahili arasında əlaqələr geniş anlamda yeni reallıqlara söykənir...



Bəli, günümüzün ən mühüm çağırışları məhz əməkdaşlığa və ortaq dəyərlərin bölüşülməsinə hədəf-

### Dünya nizamının birgə dəstəklənməsi əzmi...

lənir - çoxtərəfli platformalarda sıx əməkdaşlıq üçün yaradılan zəmin bəşəriyyətin ümumi problemlərinin həllində açar rolunu oynayır. Qlobal nizamın əsas dayaq nöqtələri isə müasir transformasiyaya uyğun olaraq tənzimlənir - etiraf olunur ki, qlobal problemlərin həllində, beynəlxalq iqtisadi-siyasi əlaqələrin oturuşmasında, hətta ən kəskin kataklizmlərin və toqquşmaların qarşısının alınmasında Qlobal Cənubun rolu artır. Bu gün etiraf edilir ki, beynəlxalq ədalətin səmərəli şəkildə müdafiəsində aparıcı funksiyanı məhz Qlobal Cənub üstlənib. Azərbaycan və Çin isə bu mühüm tabloda özünəməxsus, olduqca vacib, ən əsası isə strateji tərəfdaşlığa söykənən bir konsepsiya nümayiş etdirir. Ötən il Astanada iki ölkə arasında imzalanan Birgə Bəyannamə yeni nizamın nümunəvi əməkdaşlıq dekreti də sayıla bilər - hər iki ölkə çoxtərəfli əlaqələrin qarşılıqlı maraqlarla uzlaşdırılmasının faktoloji sənədləşməsini ortaya qoydu. Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində bildirib ki, ötən il Astanada biz ÇXR-in Sədri Si Cinpin ilə bəşəriyyətin ortaq taleyi cəmiyyətinin yaradılmasına kömək etmək səylərimizi bəyan etdik: "Biz sülh, inkişaf, bərabər hüquqlar, ədalət, demokratiya və azadlıq uğrunda, həmçinin hegemoniyaya və güc siyasətinə qarşı bəşəriyyətin ümumi dəyərlərinin təşviqi istiqamətində çıxış edirik. Bizim tərəfimizdən BMT-nin himayəsi altında beynəlxalq sistemin birgə dəstəklənməsi onun beynəlxalq məsələlərdə rolu, həqiqi çoxtərəflilik mövqeyi, həmçinin BMT Nizamnaməsi əsasında beynəlxalq hüquq, məqsəd və prinsiplərə əsaslanan dünya nizamının birgə dəstəklənməsi əzmi ifadə olundu".

### Dürüst, beynəlxalq hüquqa söykənən və ədalətə əsaslanan siyasət...

Beləliklə, Azərbaycanın yeni qlobal proseslərdəki rolunun artması, yeni perspektiv əməkdaşlıqların meydana çıxması bir daha onu göstərir ki, rəsmi Bakı apardığı siyasi-iqtisadi strategiyada uzaqgörənlik, operativlik, çevik dəyərləndirmə kimi mühüm ştrixlərə söykənir. Əlaqələrin inkişaf etdirilməsi isə yeni iqtisadi-siyasi situasiyanın üfüqlərinin genişlənməsidir. İndiki halda Qlobal Cənubun dünya düzənindəki rolunun artmasına yol açan bu kimi addımlar nəticəsində illər öncə xəyal belə edilə bilməyən məsələlər reallığa çevrilir:

- Zəngəzur xətti ilə "vahid iqtisadi-siyasi yol" predmeti ön plana çıxır;
- Dünyanın iqtisadi - ticari nüvəsinin coğrafi parametrləri dəyişir (bu məsələdə Çin də birmənalı olaraq yeni situasiyanın yanında yer alır);

Azərbaycan apardığı geniş siyasi mahiyyətlə regionda beynəlxalq münasibətlər sistemini oturuşdurur. Bölgənin təhlükəsizlik immuniteti gücləndirilir, qlobal proseslərə müdaxilə imkanları yaranır. Bu amili biz qlobal pandemiya dövründə daha bariz şəkildə görmüş olduq. Azərbaycan həm o dövrdəki TDƏŞ (hazırkı TDT) üzərindən və rəhbərlik etdiyi Qoşulmama Hərəkatının xətti ilə qlobal problemin aradan qalxmasına mühüm dərəcədə dəstək verdi. Bu addımlar isə Azərbaycanın fərdi nüfuzu ilə yanaşı həm regional, həm də qlobal maraqların çarpazlaşma nöqtəsində uzlaşma meyillərini gücləndirir. Bununla da, yeni dövr üçün aktuallıq daşıyacaq əməkdaşlıq platformaları gündəmə gəlir, mövcud olanlar isə gücləndirilir.

Azərbaycanın yaratdığı bu mənzərə həm də ortada olan imkanlardan yararlanmaq üçün fürsət deməkdir. Nəticə etibarı ilə, qlobal məkanın gənc, amma qətiyyəti, birlik və həmrəylik təşəbbüsləri ilə seçilən bir üzvü olaraq yeni beynəlxalq əlaqələr sisteminin humanizm prinsipləri əsasında qurulması cəhdləri dəstəklənir. Çoxtərəfliliyin təşviqi, regional, hətta qlobal maraqları, dəyərləri qorumağı özündə ehtiva edən siyasi gündəm Azərbaycanın ətrafında böyük bir dostluq masası formalaşdırır. Bu isə Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin də coğrafi miqyasını genişləndirir - beynəlxalq münasibətlər sisteminin aparıcı dövlətləri Azərbaycanın illərdir yürütdüyü dürüst, beynəlxalq hüquqa söykənən və ədalətə əsaslanan siyasətini təqdir edir. Prezident İlham Əliyev müsahibəsində deyib ki, Qlobal Cənubun bir hissəsi kimi, biz həmişə onun maraqlarını müdafiə etmişik: "Azərbaycan 2019-2023-cü illərdə BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının sədri olub. Planetin əhalisinin 80 faizi, dünya ÜDM-nin təxminən 50 faizi və məcmu beynəlxalq ticarət həcminin təqribən yarısı bu təşkilatın payına düşür. Qlobal Cənubun daha dayanıqlı, ədalətli və təhlükəsiz dünya nizamı qurulmasında iştirakı təbii prosesdir".

**P.İSMAYILOV**

# "Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır"

Aprelin 22-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Xətai rayon təşkilatı və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır" mövzusunda tədbir keçirilib.



Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Xətai rayonu ərazisində yerləşən abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra Zəfər parkı ziyarət olunub.



YAP Xətai rayon təşkilatının qərargahında keçirilən tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyətindən danışıb. R.Mirzəyev bildirib ki, bu il müstəqil Azərbaycanın ilk Konstitusiyanın qəbul edilməsinin 30, Vətən müharibəsində tarixi Zəfərin qazanılmasının 5 ili tamam olur. Onun sözlərinə görə, möhtəşəm Qələbənin əldə edilməsində gənclərin müstəsna rolu var. Bu da onların vətənpərvərlik ruhunda formalaşmasından irəli gəlir.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva bildirib ki, gənclər siyasəti Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin əsas məqsədi gənclərin hərtərəfli inkişafını təmin etmək, onları yüksək vətənpərvərlik ruhunda formalaşdırmaq, layiqli vətəndaş kimi yetişdirməkdən ibarətdir. Qeyd edib ki, xalqımız şanlı Zəfər qazanmaqla tarix yazıb: "Bu tarixi gələcək nəsillərə çatdırmalıyıq. Bunun üçün Vətəni sevmək, tariximizi dərindən öyrənmək lazımdır. Müstəqil dövlətimiz Ulu Öndər Heydər Əliyevin bizə əmanətidir və bu əmanəti hər zaman qorumalıyıq".

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev çıxışında müstəqil Azərbaycanın ilk Konstitusiyanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə geniş ictimai müzakirələr şəraitində hazırlandığını, Əsas Qanunda demokratik dəyərlərin öz əksini tapdığını vurğulayıb. Diqqətə çatdırıb ki, 1995-ci ildə Konstitusiyanın ümumxalq səsverməsi ilə qəbul olunmasından sonra müstəqil dövlət quruculuğu başlandı. Artıq Azərbaycan böyük inkişaf yolu keçərək güclü dövlətə çevrilib. "Şanlı Qələbəmizin qazanılmasının ciddi əsasları var. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dövlətimiz bütün istiqamətlərdə gücləndi. Nəticə etibarilə, ölkəmiz möhtəşəm Qələbəyə imza ataraq öz ərazi bütövlüyü və suverenliyini təmin etdi", - deyən R.Quluyev qeyd edib ki, yüksək vətənpərvərlik ruhunda formalaşan gənclərimiz bu müqəddəs işdə tarix yazdı. O deyib ki, öz qanları, canları hesabına tarix yazan vətənpərvər Azərbaycan gənclərinin həyat yolu gələcək nəsil üçün nümunə oldu: "Bu gün şəhid ailələrinə, qazilərə yüksək qayğı mövcuddur. Onlara hər zaman diqqət göstərmək bizim əsas vəzifələrimizdən biridir".

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova isə qeyd edib ki, müstəqil Azərbaycanın konstitusiya quruluşunun tam bərqərar olmasında gənclərimizin vətənpərvərliyi öz sözünü dedi: "Gənclər hər bir xalqın xoşbəxt gələcəyə olan ümididir. Gənclər cəmiyyətin dinamik, hərəkətverici, fəal hissəsi, ideyaların gələcəyə ötürülmə qüvvəsidir. Buna görədir ki, onların vətənpərvərlik ruhunda yetişdirilməsi əsas məsələlərdən biridir. Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən biri gənclərin inkişafıdır. Bu istiqamətdə davamlı addımlar atılır", - deyə YAP Veteranlar Şurasının sədr müavini vurğulayıb.

Çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov qeyd edib ki, Azərbaycan gəncliyinin inkişafında Ümummilli Lider Heydər Əliyev əvəzolunmaz xidmətlər göstərib: "Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin müxtəlif illərdə gəncliyin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar ölkəmizdə həyata keçirilən gənclər siyasətinə yeni impuls verib".

B.İslamov deyib ki, gənclərimizin böyük üstünlük təşkil etdiyi rəşadətli Azərbaycan Ordusunun tarixi Qələbəsi milli kimliyimizin, vətənpərvərlik və dövlətçilik dəyərlərimizin real təzahürü idi: "Vətən müharibəsində qazandığımız Qələbə yeni dövrün də əsasını qoydu. Təsadüfi deyil ki, 2020-ci ilədək Azərbaycan gəncliyinin ən ali vəzifəsi işğal altındakı tarixi torpaqlarımızın azad olunması idi. Yeni dövrün reallıqları isə Azərbaycan gəncliyinin üzərinə yeni bir vəzifə qoyur. Prezident İlham Əliyevin Vətən müharibəsindən sonrakı dövrdə çıxışlarına nəzər saldıqda bu vəzifəni daha aydın başa düşürük. Qazanılmış Zəfərin qorunması, hər zaman savadlı, dünyagörüşlü, vətənpərvər yeni nəslin formalaşması, Qələbəmizi əsas miras olaraq gələcək nəsillərə ötürmək - məhz bunlar Azərbaycan gəncliyinin yeni dövrün reallıqları fonunda başlıca vəzifələridir".

Vətən müharibəsi Qəhrəmanı Zaur Hüseynov çıxışında bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsində Azərbaycan gəncləri böyük şücaət göstəriblər: "Qazandığımız Zəfər Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlıq salnaməsidir. Hər bir döyüşçü, o cümlədən gənclər, öz həyatını Vətən yolunda fəda edən şəhidlərimiz və qəhrəman qazilərimiz tarix yazdılar".

O qeyd edib ki, müharibəyə yollanan gənclərin hamısı döyüşlərdə qəhrəmancasına iştirak etdi. "Onlar bütün dünyaya Azərbaycan gəncinin nəyə qadir olduğunu göstərdilər. Hər biri öz cəsurluğu, igidliyi ilə vətənpərvərlik salnaməsi yazdı, Qələbəmiz dillərdə dastana döndü. Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalanların böyük əksəriyyətini də məhz gənclər təşkil etdi. Biz şəhidlərimizin əziz xatirəsini hər zaman böyük ehtiramla anırıq", - deyə Vətən müharibəsi Qəhrəmanı vurğulayıb.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

## Milli Məclisin iclasında...

# Hesablama Palatası parlamentdə hesabat verdi



Aprelin 22-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 12 məsələ daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova 17-18 aprel tarixlərində Milli Məclisin nümayəndə heyətinin Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfərinin nəticələri barədə məlumat verib. S.Qafarova bildirib ki, səfərdə məqsəd Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının Şura iclasında və 58-ci plenar iclasında, faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş təntənəli iclasda və digər tədbirlərdə iştirak etmək idi. S.Qafarova, bütövlükdə bu səfərin uğurlu olduğunu söyləyib.

Sonra iclasın gündəliyində olan məsələlər müzakirəyə çıxarılıb. İlk olaraq Azərbaycan Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatı dinlənilib. Hesabatı Palatanın sədri Vüqar Gülməmmədov təqdim edib. V. Gülməmmədov diqqətə çatdırıb ki, hesabat qanunvericiliyin bütün tələblərini özündə ehtiva edir. Sənəddə Hesablama Palatasının həm audit, həm də qeyri-audit fəaliyyətinin əhatə olunmasına çalışılıb, Palatanın il ərzində fəaliyyəti barədə icmal-statistik məlumatları hesabata daxil edilib.

Onun sözlərinə görə, 2024-cü ildə Palata tərəfindən audit və analitik fəaliyyət formasında 44 nəzarət tədbiri keçirilib. Bu tədbirlərin 45,5 faizində audit və ya analitik fəaliyyət ilk dəfə və ya fərqli mövzu üzərində olmaqla keçirilib. Bir audit və bir analitik fəaliyyət “Dövlət sirri haqqında” Qanuna əsasən məxfilik rejimində aparılıb. Auditlərin əhatə dairəsini dövlət büdcəsinin gəlir və xərc parametrləri, borclanma və kəsirin maliyyələşdirilməsi mənbələri və əksər büdcədənkənar dövlət fondları təşkil edib.

Palata sədri qeyd edib ki, kənar dövlət maliyyə nəzarətinin digər forması analitik fəaliyyətdir. 2024-cü ilin iş planına əsasən Hesablama Palatası tərəfindən biri məxfilik rejimində olmaqla, iki analitik fəaliyyət keçirilib, bu nəzarət tədbirləri ilə büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımı alan təşkilatların debitor və kreditor borcları araşdırılıb, borcların büdcə təsnifatları üzrə strukturu, kontragentlər və müddətlər üzrə tərkibinin təhlili, uçotu və hesabatlılığının qiymətləndirilməsi predmet kimi müəyyən edilib.

Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi tərəfindən hesabat ilində 6 uyğunluq auditi və 2 analitik fəaliyyət keçirilib. Auditlərin əhatə dairəsini Naxçıvan Muxtar Respublikasının büdcə vəsaitləri təşkil edib. 2024-cü ilin iş planına əsasən keçirilmiş auditlərlə icmal büdcənin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının büdcəsinin 2023-2024-cü illər üzrə 180,6 milyon manatı əhatə edib. Maliyyə hesabatları üzrə təhriflərin məbləği 2 milyard 66 milyon manat təşkil edib. Bu məbləğin 888 milyon manatını əhəmiyyətli - maliyyə hesabatlarında məlumatların əks etdirilməməsi ilə bağlı təhriflər təşkil edib. Qalan 1 milyard 178,2 milyon manatını digər qrup təhriflər - mühasibat yazılışlarının doğru verilməməsi nəticəsində məbləğlərin düzgün və müvafiq istiqamətdə əks olunmaması halları təşkil edib. Nöqsan məbləğini formalaşdırılan sonuncu komponent isə səmərəsiz xərclərdir. Bunun ümumilikdə məbləği 157,7 milyon manat olub.

Bildirilib ki, əvvəlki illərin iş planları üzrə nəzarət tədbirləri ilə hesabat dövründə 8,6 milyon manat bərpa edilib. Bundan əlavə, 2023-cü ildə maliyyə hesabatlarının auditi üzrə aşkarlanmış 661,5 milyon manat əhəmiyyətli təhriflərin 400 milyon manatdan çox məbləğ üzrə müvafiq düzəlişlər edilib. Hesabat dövründə Hesablama Palatasının nəzarət tədbirlərinin materialları əsasında prokurorluq orqanları tərəfindən 7,4 milyon manatın bərpası və digər tədbirlərin görülməsi təmin edilib.

V.Gülməmmədov diqqətə çatdırıb ki, “Hesablama Palatası haqqında” Qanuna görə, Hesablama Palatası dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrasına və layihələrinə rəy verir. 2024-cü ildə Hesablama Palatası tərəfindən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası üzrə 6 rəy, yenidən baxılma üzrə layihələrə isə 3 rəy hazırlanaraq təqdim olunub. 2023-cü ilin dövlət büdcəsinin icrasına rəy ilə müəyyən edilmiş uyğunsuzluq məbləği 1296,9 milyon manat, 2025-ci ilin büdcə layihəsinə verilmiş rəy ilə uyğunsuzluq məbləği 82,9 milyon manat olub. Uyğunsuzluqlar arasında vahid büdcə təsnifatına əməl olunmaması üstünlük təşkil edib. Onun sözlərinə görə, digər bir məsələ məsafədən audit və böyük verilənlərin təhlili ilə bağlıdır. Hesabat ilində bu sahədə mövcud beynəlxalq təcrübə öyrənilib, məsafədən auditə imkan verən proqram təminatının yaradılması məqsədilə ilkin konsepsiya və texniki tapşırığın ilkin layihəsi hazırlanıb.

Sonra millət vəkilləri çıxış edərək hesabatla bağlı fikir və təkliflərini bildiriblər. Müzakirələrdən sonra hesabat qəbul olunub.

Daha sonra deputatlar gündəlikdə olan digər məsələləri müzakirə ediblər.

***Nardar BAYRAMLI***

# Erməni saxtakarlığı ifşa edilir



Aprelin 22-də Əqli Mülkiyyət Agentliyi və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan əraziləri haqqında etnocoğrafi hay-erməni hiylə və fitnələri” mövzusunda konfrans keçirilib. Konfrans Ümumdünya Kitab və Müəlliflik Gününə həsr edilib.

Tədbirdə çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov bildirib ki, bu tədbirin keçirilməsində məqsəd xüsusən əqli mülkiyyətə, kitablara və onları qoruyan müəlliflik hüququna diqqəti cəlb etmək, yaradıcılığa dəstək vermək, əqli mülkiyyət mədəniyyətinin artırılmasına xidmət etmək və şübhəsiz, hay-erməniçilik saxtakarlıqlarını, uydurmalarını və yalanlarını ifşa etməkdir. K.İmanov çıxışında müasir dünyada əqli mülkiyyətin əhəmiyyətinin və rolunun artmasına da diqqət çəkib. Qeyd edib ki, son 15 ildə əsasını əqli mülkiyyət təşkil edən qeyri-maddi aktivlərə investisiyalar maddi aktivlərlə müqayisədə 3 dəfə artıq böyüyüb: “Nəticədə 2024-cü il üçün 7 trilyon ABŞ dollarına çatıb. Dünya üzrə verilən patentlərin üçdəbir hissəsi rəqəmsal texnologiyalara aiddir və generativ süni intellektə əsaslanan patentlər güclü artım göstərir. Bununla belə, kitablara və müəlliflik hüququna olan hörmət azalmır. Belə ki, dərc olunan və milli depozitariyalarda deponə olunan kitabların dünya miqyasında sayı 2,5 milyon ədədə yaxındır. 2021-ci ildə 2,41 milyon ədəd kitabdan Avropanın payı 53,5 faiz, Asiya 35 faiz, Şimali Amerika 8,8 faiz, Latın Amerika, Karib hövzəsi və Okeaniya - 2,7 faiz olub. Ən çox kitabların sayı Çin, Almaniya, ABŞ, Britaniya, Yaponiya və Koreya ölkələrindədir”.

**“2003-cü ildə Sankt-Peterburqun 300 illiyinə həsr olunmuş “Sokrovişa akademiçeskix sobraniy Sankt-Peterburqa” kitabı çapdan çıxmışdı. Kitabın tərtibatçı kollektivinin rəhbəri, milliyyətcə erməni olan professor Yuriy Petrosyan yazırdı ki, arxivdə qorunub saxlanan erməni əlyazmaları qismində orijinal nümunə yoxdur, əksəriyyəti - 80 faizə qədəri XVII-XVIII əsrlərə aid köçürmələrdir, bir neçəsi XIV-XV əsrlərdə köçürülənlərdir. Erməni aliminin digər etirafına əsasən, bu arxivdə VII-XI əsrlərə aid olan türk orijinallarının sayı isə minlərlədir”**

Aprelin 23-nün Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü, aprelin 26-nın Beynəlxalq Əqli Mülkiyyət Günü olduğunu deyən K.İmanov müvafiq olaraq 1997-ci ildən və 2001-ci ildən bu əlamətdar günlərin ölkəmizdə qeyd olunduğunu bildirib. O, bu əlamətdar günlərin ikinci ildir ki, tam suverenliyini bərpa etmiş ölkəmizin hər bir guşəsində qeyd olunduğunu vurğulayıb.

Agentliyin rəhbəri vurğulayıb ki, 30 il ədalətin bərpasına gücünü əsirgəməyən, 44 gündə bizə qürur bəxş edən və 23 saatda şərəf və sevinc gətirən Ali Baş Komandan xalqımızın səadətini qurdu. Prezident İlham Əliyev sabahın memarı olaraq hər bir ötən günü gələcək naminə qura bilib. Azərbaycan dövləti qalib olmasına baxmayaraq, Ermənistan ilə sülh sazişi bağlamağın təşəbbüskarıdır. K.İmanov çıxışında Prezident İlham Əliyevin bu il aprelin 9-da ADA Universitetində “Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumda söylədiyi fikirlərin əhəmiyyətini də qeyd edib.

Daha sonra agentliyin rəhbəri ermənilərin səmimiyyətdən uzaq olduqlarını, ikiüzlü davranışlarını və revanşizm istəklərini qeyd edərək bildirib: “Ötən ilin aprelində və sonra fikrini təkrarlayan Paşinyan parlamentdə çıxış edərək, qonşularla münasibətdə Ermənistanın keçmişini yenidən dərk etmək çağırışı edib və qeyd etdiyinə əsasən, “tarixi Ermənistan” və “real Ermənistan” bir-biri ilə ziddiyyətdə olduğuna görə, təhlükələr yaradır. Onun sözlərinə əsasən, dünyaya Van çarlığının mövqeyindən yox, bugünkü Ermənistan dövlətinin mövqeyindən baxılmalıdır, əks halda dövlətçiliyimizin qorunmasına zərər gətiriləcək. Yaxud bu yaxınlarda Gümrü şəhərində partiya soydaşları qarşısında aşağıdakı etirafla çıxış edib: “Tarixi Ermənistandan real Ermənistana keçməliyik, əks halda real Ermənistan tarixi Ermənistana çevrilə bilər”. Lakin bunlar yalnız sözlər idi, hərəkətlər isə əksini göstərir. Paşinyanın dedikləri ilə əməli düz gəlmir: bir tərəfdən sərhəddə atəş açılır, digər tərəfdən sülh sazişinin perspektivindən danışır. Əgər bu etiraflar səmimidirsə, bəs real Ermənistan hansı səbəbdən sülh sazişinin dövlətimizin təbii olan şərtlərini həll etmir və sazişin bağlanmasını uzadır?”.

Onun sözlərinə görə, dünyanın ən zəngin arxivlərindən biri sayılan Sankt-Peterburq arxivində qədim erməni müəlliflərinin əlyazmalarının tapılması müşkül bir işdir: “2003-cü ildə Sankt-Peterburqun 300 illiyinə həsr olunmuş “Sokrovişa akademiçeskix sobraniy Sankt-Peterburqa” kitabı çapdan çıxmışdı. Kitabın tərtibatçı kollektivinin rəhbəri, milliyyətcə erməni olan professor Yuriy Petrosyan yazırdı ki, arxivdə qorunub saxlanan erməni əlyazmaları qismində orijinal nümunə yoxdur, əksəriyyəti - 80 faizə qədəri XVII-XVIII əsrlərə aid köçürmələrdir, bir neçəsi XIV-XV əsrlərdə köçürülənlərdir. Erməni aliminin digər etirafına əsasən, bu arxivdə VII-XI əsrlərə aid olan türk orijinallarının sayı isə minlərlədir”.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli bildirib ki, Əqli Mülkiyyət Agentliyinin çoxşaxəli fəaliyyətində erməni saxtakarlıqlarının ifşası mühüm yer tutur. Agentliyin bu istiqamətdə gördüyü işlərin böyük əhəmiyyəti var. Bu baxımdan Qərbi Azərbaycan İcması ilə Əqli Mülkiyyət Agentliyinin fəaliyyət maraqları üst-üstə düşür. “Bu konfrans Qərbi Azərbaycan İcmasının Əqli Mülkiyyət Agentliyi ilə keçirdiyi ikinci tədbirdir. Bu tədbirlər erməni saxtakarlıqlarının dünyada ifşa edilməsində mühüm rol oynayacaq”, - deyə İcmanın rəhbəri qeyd edib.

Tədbirdə UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının Baş katibi Seymur Fətəliyev və başqaları çıxış edərək mövzu ilə əlaqədar fikirlərini bildiriblər.

***Nardar BAYRAMLI***

# Dəmir yoluna "yaşıl maliyyə"

## Asiya Bankı nəqliyyatda karbon emissiyasının azaldılmasına dəstək verəcək

Asiya İnkişaf Bankı (AİB) "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-yə dekarbonizasiya layihəsinin hazırlanması məqsədilə 1,25 milyon dollar məbləğində texniki dəstək sənədini təsdiqləyib. Bank maliyyə vəsaitinin 250 min dollarını Texniki Yardım Xüsusi Fondu, 1 milyon dollarlıq hissəsini isə "Ağıllı Enerji" İnnovasiya Fondu vasitəsilə ayırıb. AİB Azərbaycanın beynəlxalq nəqliyyat qovşaqlarında artan mövqeyini, o cümlədən "Şərq-Qərb" və "Şimal-Qərb" dəhlizləri vasitəsilə bağlantıları gücləndirərək iqtisadi dayanıqlılığı və regional inteqrasiyanı artırmaq səylərini və Orta Dəhlizdə şaxələndirici təşəbbüskarlığını xüsusi dəyərləndirərək maliyyə dəstəyi göstərib.

Asiya Bankı respublikamızın beynəlxalq logistika mərkəzi kimi özünü tam təsdiq etməklə yanaşı, nəqliyyat daşınmalarında səmərəlilik prinsiplərinə diqqət ayırmasını, qlobal iqlim hədəflərini dəstəkləmək üçün dekarbonizasiya tədbirləri həyata keçirməsini müsbət məqamlar kimi qiymətləndirir. Azərbaycanın dəmir yolu administrasiyasının (ADY) bərpa olunan elektrik enerjisindən istifadəni artıraraq əməliyyat səmərəliliyinə nail olmaq, xərclərin azaldılmasında mühüm rol oynayan dekarbonizasiya gündəliyini gücləndirmək iradəsini dəstəkləyəcəyini bildirir. Bankın ekspertlərinin fikrincə, "yaşıl idarətmə"yə keçid, həmçinin hava keyfiyyətinin yaxşılaşdırılması, ictimai səhiyyə xərclərinin azaldılması və "təmiz enerji" sahəsində iş yerlərinin yaradılması kimi əlavə faydalar gətirəcək.

### 25 ildə 4,2 milyard dollar

Dünyanın ən güclü maliyyə institutlarından biri olan, Asiya və Sakit Okean regionunda inkişaf proqramlarının maliyyələşdirilməsində əsas donor kimi tanınan Asiya İnkişaf Bankı Azərbaycanla 25 ildir ki, infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələrdə sıx əməkdaşlıq edir. Ötən 25 il ərzində Bank ölkəmizdə həyata keçirilən layihə və proqramların maliyyələşdirilməsində 3,2 milyard dollar vəsait ayırıb. Dövlət müəssisələri tərəfindən dövlət zəmanəti ilə təmin edilmiş kreditlər əsasında həyata keçirilən layihə və proqramlara 928,5 milyon dollar, bilavasitə özəl sektorun maliyyələşdirilməsinə 61,6 milyon dolları və əvəzsiz maliyyə vəsaitləri - qrantlar və texniki yardımlar üzrə isə 36 milyon dollar yönəl-




dib. Ümumilikdə, Asiya Bankının bu müddət ərzində ölkəmizə ayırdığı maliyyə portfelinin həcmi 4,2 milyard dollar təşkil edib.

Asiya İnkişaf Bankı dəmir yolu infrastrukturunun müasirləşdirilməsində aparıcı donor kimi yer alaraq Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına 150 milyon dollar kredit ayırıb, dəmir yolu sektorunun maliyyə davamlılığının artırılması üzrə həyata keçirilən islahatların dəstəklənməsi məqsədilə 2017-ci ildə bank tərəfindən "Dəmir yolu sektorunun inkişafı proqramı" çərçivəsində 250 milyon dollar məbləğində krediti təmin edib.

Azərbaycanın dəmir yolu sektorunda dekorbanizasiya ilə bağlı təşəbbüslərə qoşulan Asiya Bankı "Gələcək üçün dayanıqlı nəqliyyat" proqramı üzrə ölkəmizlə əməkdaşlığa dair memorandum imzalayıb. Sənəd nəqliyyat sisteminin ekoloji tələbatlara uyğunlaşdırılması,

### "Gələcək üçün dayanıqlı nəqliyyat"

dəmir yolunun enerji səmərəliliyinin artırılması, və "yaşıl nəqliyyat" sahələrində yeni baxışları əks etdirir. Bu anlaşmaya əsasən, AİB "Şimal-Cənub" və Orta Dəhliz çərçivəsində dəmir yolu sektorunda infrastrukturların rəqəmsallaşdırılması və "yaşıl tranzit" prinsiplərinin tətbiqində ölkəmizə zəruri maliyyə dəstəyini göstərəcək.

Beləliklə, AİB-lə yeni əməkdaşlıq strategiyası dəmir yolu nəqliyyatının "yaşıl hədəf"lərə uyğun olaraq infrastrukturların tam rəqəmsallaşmasına və karbon emissiyasının minimallaşdırılmasına səbəb olacaq.

*E.CƏFƏRLİ*

# Fransadan daha bir anti-demokratik addım...

Fransada hüquq-mühafizə orqanları şəxsi toxunulmazlıq hüququnu kobul şəkildə pozurlar. Belə ki, "Telegram"- ın həmtəsisçisi Pavel Durov Fransa polisini sözügedən sosial şəbəkədəki yazışmaları ələ keçirmək cəhdində ittiham edib. Durov öz "X" sosial şəbəkə hesabında qeyd edib ki, Fransa polisi "Telegram" - dakı şəxsi məlumatlara girişə məhdudiyyətlərin aradan qaldırılmasını təkid edir. O, Fransa hüquq-mühafizə orqanlarının bu tələbini insan hüquqlarına zidd hesab edib - belə bir halın baş verəcəyi təqdirdə şəbəkəyə üzv olanların şəxsi mesajlarının təhlükə altına düşəcəyini bildirib: "12 illik tarixində "Telegram" heç vaxt bir bayt da olsun şəxsi mesajı açıqlamayıb. Avropa İttifaqı Rəqəmsal Xidmətlər Aktına uyğun olaraq, etibarlı məhkəmə qərarı ilə təmin olunarsa, "Teleqram" cinayətdə şübhəli bilinən şəxslərin mesajlarını deyil, yalnız IP ünvanlarını və telefon nömrələrini açıqlayacaq. Heç bir ölkə azadlıqların yavaş-yavaş aşınmasından sığortalanmayıb. Hər gün bu azadlıqlar hücuma məruz qalır və biz onları müdafiə etməliyik," - deyə Durov vurğulayıb. "Telegram" - ın həmtəsisçisinin bu sözləri bir daha Fransanın xislətini sübut etmiş oldu. Fransada insan hüquqlarının və azadlıqlarının kobud şəkildə pozulmasını artıq ekspertlər də etiraf edirlər. Heç bir hüquqi əsas olmadan vətəndaşların şəxsi məlumatlarının ələ keçirilməsi anti-demokratik addım kimi qiymətləndirilir. Bu, özünü demokratiyanın "tacı" hesab edən Fransanın Qərb dəyərlərini necə tapdaladığını aydın şəkildə sübut edir. Son doqquz ildə Parisdə və Fransanın bir sıra şəhərlərində keçirilən dinc aksiyaların zorla dağıdılması, sosial hüquqların məhdudlaşdırılması, Fransaya məxsus dənizaşırı regionlarda azadlıq tələb edənlərin repressiyaya məruz qalmaları, o cümlədən bu yaxınlarda müxalif liderin həbsi və seçkilərdə iştirakının qadağan edilməsi və şəxsi məlumatlara girişə cəhd Fransa hakimiyyətinin məqsədyönlü şəkildə insan hüquqlarını pozduğunu deməyə əsas verir.




Məsələ ilə bağlı siyasi ekspert İlyas Hüseynov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, son zamanlar Fransada insan hüquqlarının pozulması adi hala çevrilib:

"İndiki Fransa hakimiyyəti dəfələrlə anti-demokratik addımlar atıb. Bir çox dinc aksiyaların polis zorakılığı ilə dağıdılması, xüsusilə də Fransanın müstəmləkəçilik siyasətini davam etdirməsi və dənizaşırı regionlarda yerli xalqların əsarət altında saxlanılması, indi də şəxsi toxunulmazlıq hüququnun tapdalanmasına təşəbbüsün göstərilməsi - bütün bunlar insan hüquqlarının pozulmasının bariz nümunəsidir. Şəxsi məlumatlara girişə məhdudiyyətlərin aradan qaldırılmasını tələb etmək şəxsi azadlıqlara hörmətsizlikdir. Xüsusilə qeyd edim ki, Fransada insan hüquqlarının pozulması və demokratik dəyərlərin tapdanması məhz Makron hakimiyyəti dövründə daha çox təsadüf edilir. Makrondan əvvəl Fransa barədə bu cür məlumatlara təsadüfi hallarda rast gəlmək olardı. Daxili və xarici siyasətdə buraxılmış kobud səhvlər, Qərbi-Mərkəzi Afrikada geostrateji mövqelərin itirilməsi və beynəlxalq səviyyədə nüfuzun zəifləməsi Makron hakimiyyətini irrasional addımlar atmağa vadar edir. Sosial şəbəkə istifadəçilərinin şəxsi məlumatlarına giriş təşəbbüsü bu addımlardan biridir. "Telegram"- a münasibət də bu siyasətin təzahürüdür. İndiki hakimiyyət belə hesab edir ki, "Telegram"-da istifadəçilərin şəxsi məlumatlarını ələ keçirməklə Rusiyanı asanlıqla ittiham edəcəklər. İnsan hüquqları baxımından, sosial şəbəkə istifadəçilərinin şəxsi məlumatlarının təhlükəsizliyi xüsusi əhəmiyyət kəsb edir. Təəssüflər olsun ki, Fransa hakimiyyəti buna əks-mövqe nümayiş etdirir".

*Yunis ABDULLAYEV*

# Aİ Macarıstana niyə qəzəblidir?

Azərbaycana dost ölkə olan Macarıstan Avropa İttifaqının siyasi təzyiqləri ilə üz-üzə qalıb. Özünü demokratiyanın beşiyi və demokratik dəyərlərin keşikçisi hesab edən, başqalarına siyasi azadlıqlardan dərs keçməyi sevən Aİ və qurumun bəzi üzv ölkələri digər üzv ölkənin hüquqlarını tapdalamağa çalışır. Belə ki, Avropa İttifaqı Macarıstanı Ukraynaya dəstəyi əngəlləməyə cəhddə ittiham edir və Budapeşti səsvermə hüququndan məhrum etmək imkanını nəzərdən keçirir. "Guardian"-nın məlumatına görə, artıq bu istiqamətdə addımlar atılmağa başlanılıb.

## Macarıstan səsvermə hüququndan məhrum edilə bilər

Bir ildən çoxdur ki, Aİ-nin Macarıstana qarşı siyasi təzyiqləri davam edir. Xatırladaq ki, 2023-cü ilin dekabrında Avropa İttifaqının Brüsseldə keçirilən sammitində səsvermə zamanı Macarıstanın Baş naziri Viktor Orban 2024-2027-ci il büdcəsində Ukraynaya 50 milyard avro vəsaitin ayrılmasını nəzərdə tutan düzəlişlərə veto qoymuşdu. Orbanın bu addımı Aİ-nin rəhbərlərini ciddi şəkildə qəzəbləndirmişdi. "Politico" qəzeti Aİ-nin adının çəkilməsini istəməyən rəsmisinin sözlərinə istinadən qeyd etmişdi ki, əgər Orban növbəti sammitdə Aİ-nin Ukraynaya 50 milyard avro yardımının əleyhinə yenidən səs verərsə, Brüssel Macarıstanı səsvermə hüququndan məhrum etmək üçün tədbirlər görə bilər. Bu ilin əvvəlindən başlayaraq bu təzyiqlər daha da şiddətlənib. Qeyd edək ki, Macarıstan Aİ-nin hazırkı gündəm mövzusu olan Ukraynaya 500 milyard dollar dəyərində olan gələcək maliyyə yardımına da birmənalı yanaşmır - Macarıstan Baş nazirinin siyasi müşaviri Balazs Orban bəyan edib ki, Ukraynanın Aİ-yə inteqrasiyası üzv ölkələrə ittifaqın büdcəsindən 12 dəfə çox baha başa gələcək. Ukrayna KİV-ləri isə Aİ-nın növbəti yardımının 1 trilyon avroya qədər ola biləcəyini iddia edirlər. Eyni zamanda rəsmi Budapeşt Aİ-nin Rusiya ilə enerji sahəsində münasibətlərinin davam etdirilməsinin tərəfdarıdır - bu yaxınlarda Lüksemburqda Avropa İttifaqı ölkələrindən olan həmkarları ilə görüşdən sonra Macarıstan Xarici İşlər Nazirliyinin rəhbəri Peter Siyarto jurnalistlərə açıqlamasında bildirib ki, Budapeşt Aİ-nin Rusiyadan enerji təchizatını məhdudlaşdırmağa yönəlmiş yeni tədbirlər planını təsdiqləməyəcək. Lüksemburqda baş tutan görüşdə Aİ-nin üzv ölkələrinin XİN rəhbərləri Rusiyaya qarşı 17-ci sanksiya paketinin layihəsini müzakirə ediblər. Müzakirələrdə videobağlantı vasitəsilə iştirak edən Ukraynanın XİN rəhbəri Andrey Sibiqa Rusiyanın enerji resurslarına və nüvə sənayesi məhsullarının tədarükünə məhdudiyyətlər qoymağa çağırıb. Bəzi üzv ölkələrin XİN rəhbərləri Kiyevin təklifini dəstəkləyiblər. Amma Macarıstanın XİN rəhbəri bu cür tədbirləri dəstəkləməyəcəyini açıq şəkildə bəyan edib. Bu arada Macarıstan öz ərazisindən NATO və ya Avropa İttifaqı (Aİ) qoşunlarının Ukraynaya göndərilməsinə müsbət yanaşmır. Macarıstanın Avropa Şurası Parlament Assambleyasında deputatı Laslo Torotskay "İzvestiya"ya müsahibəsində bildirib ki, Macarıstan hökuməti ölkə ərazisindən NATO və ya Aİ qoşunlarının Ukraynaya göndərilməsinə icazə verməyəcək.



## Aİ öz nizamnaməsini pozur....

Məsələ ilə bağlı politoloq Yeganə Hacıyeva "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Avropa İttifaqı bir sıra üzv dövlətlərin hüquqlarını pozmağa yönəlik addımlar atır. Onun sözlərinə görə, bu addımlar suveren əsaslarda əməkdaşlıq şərtləri altında birləşmiş Aİ üzvü ölkələrin suveren hüquqlarının zəbt olunması istiqamətində izah edilməlidir: "Bu kimi addımlardan biri də həmin üzv ölkələrin dövlət olaraq seçimlərinin sorğulanması və bu seçimlərə görə onlara qarşı hər hansı sanksiyalar çağırışlarının edilməsi və hədələnməsidir. Macarıstana qarşı belə bir addımın reallaşdırılması istiqamətində uzun müddət idi ki, "axtarışlar edilir", siyasi söykənəcək axtarılırdı. Ümumiyyətlə, Aİ Macarıstanın dövlət olaraq seçiminə heç vaxt hörmətlə yanaşmayıb. Diqqətçəkən məqam da odur ki, mərkəzi Brüssel, yəni Aİ-nin siyasi-iqtisadi təsisatları özünün bir sıra üzv ölkələrin iqtisadi maraqları naminə siyasi qərarlar, çox zaman iqtisadi dairələri maraqlarını təmin etmək üçün spekulyasiyalara, manipulyasiyalara əl atır. Aİ-nin daxili nizamnaməsinin əsas bəndi sayılan bərabərhüquqlu iştirakçılığa söykənməli olan əməkdaşlıq çərçivəsindəki suveren hüquqları pozur. Bəlli olduğu kimi, nizamnamə və prinsiplər Aİ müstəvisində bərabər iştirakçılığı ehtiva edir. Bu mənada verilən qərarlar, razılıqlar da məhz bu bərabər iştirakçılıq çərçivəsində reallaşmalıdır. Macarıstana qarşı Aİ rəsmilərinin zaman-zaman səsləndirdikləri çağırışlar da məhz bu hüququn pozulmasını şərtləndirir. Məsələnin mənəvi tərəfi izah edilən olsa da , Ukrayna üçün yardım vacib və Aİ-nin təhlükəsizliyi üçün xərclənmiş resurslar olsa da, məsələnin hüquqi tərəfi Macarıstanın tərəfindədir. Hazırki situasiyada Macarıstan özünün dövlət maraqlarının, iqtisadi rıçaqlarının və resurslarının qorunması istiqamətində atdığı addımlara görə "ittiham edilir". Macarıstanın bu hüququ Aİ tərəfindən məhdudlaşır. Bunun özü də bərabər iştirakçılıq hüququ prinsipinin tamamilə pozulması deməkdir. Təəssüflər olsun ki, belə addımlara rast gəlinir və Macarıstanın timsalında baş verənlər Aİ-nin mütəmadi olaraq üzv dövlətlərin hüquqlarının pozulması istiqamətindəki növbəti epizodudur".

*Yunis ABDULLAYEV*

# Harvard Universitetinin cavabı...

## Təhsil müəssisəsi Tramp administrasiyasını məhkəməyə verib



Harvard Universiteti ABŞ Prezidenti Donald Trampın administrasiyasına qarşı bir neçə milyard dollar məbləğində maliyyələşdirmənin bloklanması səbəbindən məhkəməyə müraciət edib. Bu barədə "The Harvard Crimson" tələbə qəzeti məlumat yayıb. Bunun səbəbi isə ABŞ hökumətinin universitetlərdən tələb etdiyi kurs dəyişiklikləri ilə bağlı yaranmış mübahisə fonunda, hökumətin Harvard Universitetinə ayrılmış milyardlarla dollar məbləğində maliyyəni dondurmasıdır. Bu addım tanınmış universitetin vətəndaş hüquqlarına hörmətsizlik göstərməsi və antisemitizmlə mübarizədə kifayət qədər səylə çıxış etməməsi ilə əsaslandırılıb. Universitet hökumətin bir sıra tələblərini yerinə yetirməkdən imtina edib.

ABŞ Prezidenti Donald Tramp ümumilikdə Harvard Universitetinə ayrılmış 2,2 milyard ABŞ dolları dəyərində çoxillik qrantların və 60 milyon dollar dəyərində dövlət müqavilələrinin maliyyələşdirilməsini dayandırıb. Bir müddət əvvəl hökumət universiteti bir sıra dəyişikliklər etməyə və müxtəlif öhdəliklər götürməyə çağırmışdı. Belə ki, universitet xarici tələbələrin davranış kodeksini pozmaları barədə federal orqanlara məlumat verməli, tələbə, müəllim və işçilərin "baxış bucaqlarının müxtəlifliyi"nin qiymətləndirilməsi üçün yoxlama aparmalı, müxtəliflik meyarlarına əsasən tələbə qəbuluna və işə qəbul prosesinə son qoymalıdır. Harvard rəhbərliyi daha əvvəl bu tələbləri rədd etmişdi. "Hakimiyyətdə hansı partiyanın olmasından asılı olmayaraq, heç bir hökumət özəl universitetlərə nəyi tədris edəcəklərini, kimi qəbul və işə götürəcəklərini, eləcə də hansı sahələrdə tədris və tədqiqat aparacaqlarını diktə etməməlidir", - deyə universitetin prezidenti Alan Qarberin məktubunda bildirilib.

Tələblərinin rədd edilməsindən sonra isə Donald Tramp aprelin 15-də Harvard Universitetini vergidən azadetmə statusundan məhrum etməklə hədələmişdi. Prezident universitetin "akademik proqramlara yenidən baxılması ilə bağlı tələbləri" rədd etdiyinə görə üzr istəməli olduğunu bildirib. Kolumbiya Universitetindən başlayaraq, Tramp administrasiyası ölkədəki universitetlərin kampuslarında keçən il baş verən Fələstin tərəfdarı olan tələbələrin etiraz hərəkatını idarə etdiklərinə görə onları tənqid edib. Tramp etirazları anti-Amerika və antisemitizm halları adlandırıb, universitetləri marksizmi və "radikal sol" ideologiyanı təbliğ etməkdə ittiham edib və onun administrasiyasının tələbləri ilə razılaşmayan universitetlərə federal qrantları və müqavilələri kəsəcəyini vəd edib.

Tramp sosial mediada paylaşımında bildirmişdi ki, Harvard Universitetinin prezidenti "siyasi, ideoloji, terrorizmdən ilhamlanan və dəstəklənən xəstəliyi" təbliğ etməyə davam edərsə, o, vergi statusunu ləğv etməklə bağlı düşünməyə məcbur olacaq. ABŞ Vergi Məcəlləsinə əsasən, əksər universitetlər federal gəlir vergisindən azaddır, çünki onlar ictimai təhsil məqsədləri üçün fəaliyyət göstərirlər. Ağ Evin mətbuat katibi Kerolayn Levitt isə jurnalistlərə deyib ki, Tramp, universitetin kampusunda "yəhudiəsilli amerikalı tələbələrə qarşı törədilən antisemitizm" üçün Harvard Universitetinin üzr istəməsini tələb edir. O, Harvard və digər universitetləri federal maliyyə alanlara irqi və ya milli mənşəyə görə ayrı-seçkilik etməyi qadağan edən Mülki Hüquqlar Aktının VI maddəsini pozmaqda günahlandırıb. Bu maddəyə əsasən, federal maliyyələşdirmə yalnız uzun araşdırma və dinləmələrdən və Konqresə 30 gün ərzində bildirildikdən sonra dayandırıla bilər ki, bu da Kolumbiya və ya Harvardda baş verməyib.

Bəzi professorlar və tələbələr etirazların ədalətsiz olaraq antisemitizmlə izah olunduğunu, onlardan akademik azadlığa Konstitusiyaya zidd hücum üçün bəhanə kimi istifadə edildiyini bildirib. Harvard Universitetinin prezidenti Alan Qarber isə Tramp administrasiyasının tələblərinin söz azadlığı və Konstitusiya qanunlarını pozduğunu bəyan edib.

Bütün bunların fonunda Harvard Universiteti məhkəməyə müraciətində özünü haqlı hesab edir. Təhsil müəssisəsi ölkə rəhbərliyini "Harvardı konstitusiya hüquqlarını müdafiə etdiyinə görə cəzalandırmaq" məqsədilə qanunsuz və konstitusiyaya zidd kampaniya aparmaqda ittiham edir. "Harvard və digər universitetlərə təklif olunmuş kompromis aydındır: ya hökumətə təhsil müəssisənizlə bağlı mikromenecmentlə məşğul olmağa icazə verin, ya da onun tibdə irəliləyişlər əldə etmək, elmi kəşflər etmək və innovativ həllər tapmaq imkanını təhlükə altına qoyun", - deyə, "The Harvard Crimson" nəşri Massaçusets ştatı məhkəməsinə təqdim edilmiş iddia mətnindən sitat gətirib.

Harvard 2,2 milyard dollarlıq maliyyələşdirmənin, eləcə də Tramp administrasiyasının Harvarda göndərdiyi məktublarda yer alan "qeyri-konstitusion tələbləri" səbəbindən tutulan hər hansı vəsaitin dondurulması barədə qərar çıxarmaq istəyir. Universitet əmindir ki, maliyyələşdirmədən imtina təhsil müəssisənin öz idarəetmə sistemini dəyişməyə, akademik proqramlarını və işə qəbul qaydasını yenidən nəzərdən keçirməyə məcbur etməyə yönəlib. Universitetə görə, bu, ifadə azadlığını təmin edən konstitusiyanın birinci düzəlişinə ziddir.

"The New York Times" qəzeti isə yazır ki, iddianın cavabdehləri kimi ABŞ təhsil naziri Linda Makmeyon, ədliyyə naziri və baş prokuror Pem Bondi, səhiyyə və sosial xidmətlər naziri kiçik Robert Kennedi və bir sıra digər məmurlar göstərilib.

***N. BAYRAMLI***

# Viran vücuddan qaçış

## Akutaqava Rünoskenin həyatıyla sənətinin qovuşağında

**əvvəli ötən sayımızda**

Müəllif şərdən şər törədiyini, pisliyin də xəstəlik, mikrob kimi yayıldığını bizə sadə bir dillə anladır. Zen-buddizmin qızıl qanununa görə, yaxşı fikir yaxşı sözə, yaxşı söz də yaxşı əmələ çevrilir. Hər faydalı əməl xoş niyyətdən, xeyirli fikirdən qaynaqlanır, bu dünyadakı yaxşılıqların başqa mənbəyi yoxdur. Xoş niyyətin yerini bəd niyyət alırsa, insan özünü karma qanunlarının sərəncamına vermiş olur, sansara zəncirini boynuna dolamış olur, öz acı aqibətini bəri başdan bəlləmiş olur. Arını, vicdanını o dünyanın astanasında adam ətinə dadanmış quduz yırtıcıların quyruğuna bağlayıb fikrini kirlədəndən, xəyalını çirkləndirəndən sonra gedərgəlməzə yollanan həmin o nökər kimi.

Ancaq "Rasömon darvazası" novellasını təkcə ibrətamiz rəvayət kimi yozmaq doğru olmaz. Əsərdən çıxan bir nəticə də budur ki, insanları öz ətrafında birləşdirən vahid həqiqət yoxdur, hərənin öz həqiqəti, həyatdan qopara biləcəyi mənfəəti var, heç kimi də öz həqiqətini rəhbər tutub yaşamaq istədiyinə görə qınamaq olmaz. Yeddi il sonra yazacağı dünya şöhrətli "Cəngəllikdə" novellasında müəllif bu mövzuya daha dərindən baş vuracaq, insanın sadəcə məhdud baxışlı bir məxluq, təbiətin konveyerindən çıxmış dar düşüncəli canlılardan biri olduğunu şahidlərin iştirakıyla bizə ayəni şəkildə göstərməyə çalışacaq...

Bəs həqiqət, xeyir, gözəllik? Hamının ola biləsi həqiqət heçmi yoxdur? Akutaqavanın əsərlərindən yola çıxsaq, həqiqəti xalq arasında, kütləvi düşüncədə axtarmaq əbəsdir. Həqiqət elə gözəlliyin, mükəmməlliyin özüdür. Həqiqət - çılpaq gözəllik, acı, sərt estetika, kamil incəsənətdir, o da yalnız təbiətin seçdiyi ayrı-ayrı fərdlərə, dahilərə qismət olan ali nemətdir. Qalan heç nəyin dünyada dəyəri yoxdur. "İnsan ömrü Bodlerin bir misrasına dəyməz".

Xeyirlə şər də onun nəzərində varlığın mayasından, eyni mənbədən gələn, bir-birini istisna eləməyən, əksinə, bir-biriylə aramsız qarşılıqlı əlaqədə olan, bir-birini törədən, tamamlayan fenomenlərdir. Bir məktubunda Akutaqava belə yazırdı: "Mənə elə gəlir yalnız xeyiri sevə-sevə şərə vurulmaq mümkündür. Bodlerin şeirlərini oxuyanda məni ən çox onun şəri vəsf eləməsi yox, onun xeyirə təşnəliyi heyran qoyurdu. Düzünü desəm, mən xeyirlə şərə eynicinsli anlayışlar kimi baxıram". Yalnız zehni sakitlik, ruhi dinclik məqamına çatmış kamil fərd xeyir-şər dilemmasından sıyrılıb bu təzadın fövqündə qərar tuta bilər.

***

"Burun" (1916) novellası Qoqolun eyni adlı povestinin təsiriylə yaranıb. Hekayənin qəhrəmanı rahib Dzentinin çənəsinin üstünə sallanan uzun burnu var. Zavallı rahib bu qüsuruna görə həmişə xəcalət çəkir, lağlağı hədəfi olur. Bununla belə özünü elə aparır, guya burnunun uzunluğu onu narahat eləmir, halbuki kənar şəxsin yardımı olmasa, yemək də yeyə bilmir. İllər boyu təskinlik üçün özünə bənzər birini axtarsa da, heç yerdə tapa bilmir. Burnunu qısaltmaq üçün yüz yola əl atır, ancaq bir nəticəsi olmur.

Günün birində paytaxtdan qayıdan şagirdi həkim dostundan onun dərdinin çarəsini öyrəndiyini bildirir: rahibin burnunu qaynar suda pörşələyib sonra da yaxşıca tapdalamaq lazımdır, ucundakı piy vəzləri çıxandan sonra burun gödəlib qaydasına düşəcək. Şagirdin yardımıyla onlar həkimin buyurduğu əməliyyatı yerinə yetirirlər. Əməliyyat müsbət nəticə verir, Dzentinin burnu qısalıb normal şəklə düşür, başqalarının burnundan seçilmir. Ancaq rahibin canı dedi-qodudan qurtarmır, tam tərsinə, istehzalı gülüşlər, kinayəli baxışlar, lağlağılar daha da artır: "Bir cüt təzadlı duyğu insan qəlbində daim baş-başa yaşayır. Elə bir adam tapılmaz ki, yaxından tanıdığı birinin bədbəxtliyinə acımasın. Amma elə ki tanışı bədbəxtliyinin səbəbini aradan qaldırır, ətrafdakı adamlar nəsə çatmırmış kimi özlərini narahat hiss eləməyə başlayırlar. Bir balaca üstünə qoyub belə də deyə bilərik ki, adamların içində o zavallını yenidən əvvəlkitək bədbəxt görmək arzusu oyanır, ona qarşı passiv də olsa gizli bir düşmənçilik baş qaldırır..."

Dzenti özünə münasibətin kəskin dəyişdiyini görsə də, bu dəyişikliyin səbəbini anlamır. İş o yerə çatır ki, rahib əvvəlki burnunun xiffətini çəkməyə başlayır. Onun ovqatı, xasiyyəti yaxşılığa doğru dəyişməliykən bunun tam tərsi baş verir. Günlərin bir günü Dzentinin burnu şişməyə, böyüyə-böyüyə əvvəlki formasını almağa başlayır. Bundan sonra rahib rahatlıq tapır, sevinir ki, daha onu lağa qoyan olmayacaq.

Bu yerdə mənim yadıma Alber Kamünün bu novelladan təqribən iyirmi beş il sonra qələmə aldığı "Yabançı" romanında qurulmuş məhkəmənin sonluğu düşür: cəmiyyətin tapındığı normalara laqeyd, biganə Mersonu törətmədiyi ağır cinayətlərdə suçlayan qəddar kütlə hakim ona edam hökmü kəsəndən sonra sustalıb müttəhimə mərhəmətlə, az qala nəvazişlə baxır...

***

"Batat sıyığı" (1916) novellası da bundan əvvəl haqqında danışdığımız hekayə kimi qədim kitablardan götürülmə bir lətifə əsasında yaranıb. Fəqət bu əsərə Qoqolun "Şinel" povestinin təsiri də danılmazdır, mütəxəssislər bunu dönə-dönə vurğulayıblar. Göründüyü kimi, Akutaqava milli zəmində boy atmış fidanları dünya ədəbiyyatı adlı nəhəng ormanın qollu-budaqlı qocaman ağaclarına calamağın ustasıdır. Bu fikri Çexovun "Albalı bağı" pyesinin təsiri altında yazılmış "Bağ" novellası haqqında da söyləmək olar. Həm də Akutaqavanın rus ədəbiyyatıyla dialoqu bunlarla bitmir; məsələn, onun "Meşə cüllütü" hekayəsi Tolstoyla ona qonaq gəlmiş Turgenevin birgə ova çıxmağından bəhs eləyir...

Əgər "Şinel" povesti sosioloji mahiyyət daşıyırsa, "Batat sıyığı" novellası psixoloji hekayədir. Hekayəni şərti olaraq iki hissəyə bölmək olar: birinci hissəni bütövlükdə "Şinel"dən iqtibas da saya bilərik, burada biz əsərin qəhrəmanı, onun xarakteri, arzuları, mühitiylə tanış oluruq. Eynən "Şinel"in qəhrəmanı Başmaçkin kimi günü keçmiş qoi (aşağı rütbəli hərbi qulluqçu) də "kiçik adam" seriyasından hamının hörmətsiz yanaşıb məzələndiyi, lağlağı obyektinə çevirdiyi qorxaq, miskin, fərasətsiz, yazıq bir samuraydır. Onun ən böyük arzusu ömründə bircə dəfə doyunca batat sıyığı yeməkdir. Belə dadlı yeməyi imperator məclislərində verirlər, sıravi adamlarasa onu dadmaq hələ-hələ qismət olmur.

Ağaların qurduğu bir məclisdən sonra sıravi qulluqçular masada qalan artıqları yeməyə girişəndə baş samurayın cangüdəni qoinin arzusundan xəbər tutur. Novellanın ikinci hissəsi onların səfərinə həsr olunub - cangüdən Tosihito qoini düşərgədən öz evinə qonaq aparır. Nökərlər, qulluqçular axşamdan xeyli batat yığıb hazırlayırlar, səhər ertəyə qazan-qazan sıyıq ocaqlar üstündə buğlanır. Ağzınacan dolu bir gümüş qazanı gətirib qoinin qarşısına qoyurlar. Sonra süfrəyə başqa dolu qazanlar da düzülür. Ancaq zavallı samuray bir qazanı güclə boşalda bilir. Onun yeganə arzusu elə o süfrənin arxasındaca ölüb gedir, qoi illər boyu ürəyinin başında bəslədiyi arzunun arxasınca baxa-baxa qalır, qarşısındakı sıyığın həsrətiylə yaşadığı günləri təəssüf dolu həsrətlə xatırlayır. Artıq qoinin arzusundan əsər-əlamət qalmır, o, Martin İdenin dediyi kimi, heç nə arzulamamaq mərəzinə mübtəla olur. Ona həmin arzunun yalnızca külü qalır. Qoi başa düşür ki, bir də heç vaxt batat sıyığı deyilən təamı dilinə vura bilməyəcək.

Arzuya çatmaq - arzunu öldürmək deməkdir. İnsan özü də bilmədən şüursuz bir istəklə ölümünə can atır. Budda məhz buna görə şagirdlərinə arzularının dalınca qaçmamağı, ehtiraslarını cilovlamağı, ömürlərini sağa-sola xərcləməkdən çəkinməyi tapşırırdı, çünki doymuş arzunun arxasında boşluq, yorğunluq, peşmanlıq, ölüm durur. Yeganə arzusunu dəfn eləyəndən sonra qoi hansı diləkdən güc alıb həyatdan yapışacaq? Yəqin Martin İden kimi, elə özcə müəllifi kimi onun da əcəli çox uzaqda deyil...

***

"Hörümçək toru" (1918) novellasında deyilir ki, bir dəfə Budda səhər-səhər cənnət gölünün sahilində tək-tənha gəzişəndə dayanıb lotos güllərinin iri yarpaqları arasından bərq vuran gölün dibində - cəhənnəmin dərinliyində nələr baş verdiyinə diqqət yetirir: "Cəhənnəmin dərinliklərində saysız-hesabsız günahkar qaynaşırdı. İş elə gətirdi ki, Buddanın nəzərini Kandata adlı bir günahkar cəlb elədi. Kandata qaniçən bir quldur idi. Çoxlu cinayət törətmişdi: öldürmüşdü, soymuşdu, yandırmışdı... Ancaq onun da ayağına yazılmış bir xeyirxah iş tapıldı".

Kandata bir dəfə sıx meşədə cığırın kənarıyla qaçan babalaca hörümçəyi tapdalayıb əzməkdəykən ayağını yerə basmayıb günahsız həşəratı xilas eləyir. Budda cəhənnəmin seyrinə dalanda ürəyindən keçirir ki, hörümçək də əvəzində bu qulduru cəhənnəmdən qurtarsın. Bir cənnət hörümçəyi gümüşü lifini lotosun yaşıl yarpağından asır, Budda lifi ehtiyatla götürüb ağ güllərin arasından suya sallayır. Hörümçək lifi cəhənnəmin dibinə çatana qədər dümdüz aşağı enir. Əzab çəkməkdən heydən düşmüş Kandata başını qaldıranda içində çabaladığı qan gölünün üstünü tutmuş qaranlığı yarayara düz üstünə enən gümüşü hörümçək lifini görü alır. Ona yalnız bu sapdan yapışıb yuxarı dartınmaq qalır. Kandata hörümçək lifindən iki əliylə yapışıb var gücüylə yuxarı dırmanmağa başlayır.

Qurtulmaq üzrə olanda Kandata görür ki, cəhənnəmdə əzab çəkən bir xeyli başqa günahkar da lifdən yapışıb onun ardınca yuxarı dırmaşır. Qorxur ki, lif bu qədər adama tab gətirməyib qırıla, bunca əziyyət çəkəndən sonra yenidən kələməyallaq cəhənnəmə vasil ola. Bu adamları necəsə geri qaytarmaq lazımdır. Bunları fikirləşib ardınca yuxarı dırmananlara təpindiyi vaxt sap Kandatanın tutduğu yerdən qırılır, zavallı ah çəkməyə belə macal tapmadan yenidən zülmətin dibinə baş vurur.

"Lotos gölünün sahilində dayanmış Budda əvvəldən axıra qədər hər şeyi görmüşdü. Kandata ağır daş kimi Qanlı gölün dibinə batanda Budda kədərli-kədərli yenidən gəzişməyə başladı.

Kandatanın ürəyi mərhəmətdən, rəhmdən uzağıdı, nə yolla olur olsun, yalnız özünü cəhənnəmdən qurtarmağı düşünürdü, buna görə də haqlı cəzasını almışdı: yenidən cəhənnəmin girdabına atılmışdı. Buddanın nəzərində bu, olduqca rüsvayçı, miskin bir tamaşaydı!.."

Göründüyü kimi, karma qanunu bu kiçik süjetdə də sözünü deyir. Doğrudan da, kim nə eləyirsə, özünə eləyir - istər yaxşılıq olsun, istərsə pislik. Bioloji qanunlardan fərqli olaraq ilahi qanunları işə salan cihazlar bizdən kənarda deyil, o mexanizm bizim içimizdə, ruhumuzda, ürəyimizin başındadır, o qanunlar özümüzdən xəbərsiz gecə-gündüz bizi idarə eləyir. Kandatanın xırdaca yaxşılığı özünə qayıtmaqdaydı, ancaq o bu qurtuluşu başqalarına qıymadı, ona görə özü də qurtula bilmədi. Qalan cəhənnəm sakinləri də əzablardan xilas ola bilmədilər, çünki onlar bu qurtuluşa layiq iş görməmişdilər. O nazik lif məhz Kandatanın ümid sapıydı. Onları qurtarsa, yenə Kandatanın mərhəməti qurtarardı, ancaq Kandata bu səfər mərhəmətini başqalarından, deməli, həm də özündən əsirgədi.



**F.Uğurlu**

**davamı növbəti sayımızda**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Milyonları bir araya gətirən missiya!




Kitablar zehnimizi və yaradıcılığımızı stimullaşdırmaq üçün mühüm rola malikdir. Eyni zamanda kitab günümüzdə hər bir xalqı beynəlxalq arenaya çıxaran və onu təbliğ edən vasitələrdən biridir. Məlumdur ki, əfsanələr, rəvayətlər, qəhrəmanlıq dastanları əvvəllər şifahi formada yazılıb, sonralar isə daş, dəri və ağac üzərinə yazılaraq bu günə qədər gəlib çatıb. Əlifba və yazının yaranması, kağızın kəşfi, əlyazmalar, çapçılığın ixtira edilməsi, kitabxanaların yaranması isə kitabın inkişaf mərhələsində ən mühüm səhifələrdir.

Kitabın insan həyatına daxil olması, kitabların çoxalması həm də müəlliflik hüququnun yaranması zərurətini ortaya çıxarıb. Kitab və kitab mütaliəsinin önəmini nəzərə alaraq UNESCO 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında hər il aprel ayının 23-nü “Ümumdünya Kitab və Müəllif Hüquqları Günü” elan edib. Ümumiyyətlə, kitab, müəllif və müəlliflik hüququ anlayışları yaranandan bəri bir-biri ilə qırılmaz təmasda olub. Bugünkü rəqəmsal dünyanın köklü dəyişikliklərinə baxmayaraq, kitab yenə də öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

Elektronik və audiovizual məhsulların icazəsiz təkrar istehsalı və yayılmasının ümumi adı piratlıq olaraq qəbul olunub. Bu mənada, qayda pozuntularınının “piratlıq” adlandırılması müəllif hüququnun yaranmasından bir qədər daha əvvəl baş verib. 1709-cu ildə yaranan və müəllif hüququyla bağlı ilk sayılan “Statue of Anne” fərmanına qədər 1557-ci ildə “Stationer’s Company of London” şirkətinin Kral Lisenziyası alması nəşriyyat sahəsində bu şirkətə inhisar imkanı yaratmışdı. 1603-cü ildə bu lisenziyadan kənardakı bütün fəaliyyətlər piratlıq olaraq tanınırdı. Bu anlayışın istifadəsinin hüquqi bazasının yaranma tarixi elə həmin dövrlərə dayanır və günümüzə qədər daimi olaraq istifadə olunmaqdadır.

## Nə üçün 23 aprel?

23 aprel tarixinin dünya ədəbiyyatı üçün simvolik olmasını kitab dostları daha yaxşı bilir. Belə ki, həmin gün söz sənəti dahilərindən Şekspir, İnka Qarsilaso de la Veqa dünyasını dəyişib. Moris Droqon, X.Laksness, Vladimir Nabokov, Maniel Mexia Valeho kimi korifeylər isə aprelin 23-də dünyaya göz açıblar.

Azərbaycanda bu əlamətdar tarix 1997-ci ildən başlayaraq hər il qeyd edilir. Ölkəmizdə kitab nəşri və müəlliflik hüququ sahəsində mühüm işlər görülüb. Müəllif Hüquqları Agentliyi yaradılıb, Azərbaycan “Ədəbi-bədii əsərlərin qorunması haqqında” Bern Konvensiyası və “Müəllif hüquqları haqqında” Ümumdünya Konvensiyasına qoşularaq geniş beynəlxalq əməkdaşlığa da başlayıb.

## Dünyanın ən bahalı kitabı

İndiyə qədər ən baha qiymətə satılan kitab Leonardo Da Vinçiyə məxsusdur. Da Vinçinin əlyazma kitabı olan “Codex Leicester” Bill Qeyts tərəfindən 48,4 milyon dollara alınıb. Da Vinçi bu kitabında astronomiya, suyun hərəkəti, hidrologiya və geologiya sahələrində etdiyi araşdırmalardan bəhs edib.

## Dünyanın ən kiçik kitabı

Dünyada ən kiçik kitab olaraq qəbul edilən “Dörd fəslin çiçəkləri”, 22 səhifədən ibarətdir. 0.75 x 0.75 millimetrlik ölçüyə malik olan kitab “Ginnesin Rekordlar Kitabı”na daxil edilib. Əlbəttə ki, bu kitabı oxumaq üçün xüsusi mikroskop və ya lens tələb olunur.

*Yeganə BAYRAMOVA*

# “Bu günün balacaları sabahın böyükləridir”

## Qardaş Türkiyədə Milli Suverenlik və Uşaq Bayramı Günüdür...

Bu gün Türkiyənin tarixində dönüş nöqtələrindən biridir. Aprelin 23-də qardaş ölkənin hər bir tərəfində bayram əhval-ruhiyyəsi yaşanır. Belə ki, həmin tarixdə Türkiyə xalqı öz suverenliyini ölkəni ələ keçirmək istəyən düşmənlərə və onlarla əməkdaşlıq edənlərə qarşı mübarizə apararaq əldə etmişdi. 1920-ci il aprelin 23-ü, eyni zamanda, türk millətinin iradəsini təmsil edən Birinci Böyük Millət Məclisinin qurulması və türk xalqının suverenliyini elan etdiyi tarixdir. Həmin gün Türkiyədə Milli suverenlik və Uşaq Bayramı günü kimi qeyd olunur.



## Uşaqların göstərişləri yerinə yetirilir

Türkiyə Respublikasının qurucusu və ilk prezidenti Mustafa Kamal Atatürk 1924-cü il aprelin 23-də bayramın qeyd edilməsi barədə qərar verib. 1927-ci ildən isə bu tarix həm də Uşaqlar Günü kimi qeyd olunur.

“Bu günün balacaları sabahın böyükləridir”,- deyən Atatürk bayram ərəfəsində dövlətin idarəsinin uşaqların öhdəsinə buraxılması ənənəsinin əsasını qoyub. Bu çərçivədə keçirilən 23 aprel tədbirlərində Türkiyədə uşaqlar nitq söyləyir, şeirlər oxuyur. Hər il 23 apreldə Türkiyə prezidenti, baş naziri, şəhər valiləri, bələdiyyə sədrləri, kənd və qəsəbə muxtarları öz yerlərini müəyyən olunan uşaqlardan birinə verir. Azyaşlıların bu vəzifədə verdiyi göstərişlərə də riayət olunur.

23 Apreldə bayram Türkiyə Respublikası dövlət adamlarının, Anıtkabir də daxil olmaqla, müxtəlif Atatürk abidələri yanında rəsmi mərasimlərlə başlayır, stadionlarda ibtidai təhsil şagirdlərinin hazırladığı nümayişlərin sərgilənməsi və rəsmi keçidlərlə davam edir. Rəsmi tədbirlərdən sonra müxtəlif növ yarışmalar keçirilir. Müxtəlif qeyri-hökumət təşkilatları və ya qurumlar tərəfindən təşkil edilən tədbirlərə yer verilir.

## Şənliklərə 50-dən çox ölkənin uşaqları qatılır!

Türkiyə 23 Apreli bütün dünya uşaqlarının qeyd etdiyi bir bayram halına gətirməyi məqsəd qoymuşdu. Birinci dəfə yalnız SSRİ, İraq, İtaliya, Rumıniya və Bolqarıstanın iştirak etdiyi şənliyə hazırda təxminən 50-dən çox ölkənin uşaqları qatılır. Bayram tədbirləri 1979-cu ildən 2000-ci ilə qədər Türkiyənin paytaxtı Ankarada təşkil edilib, daha sonra ölkənin başqa şəhərlərində də həyata keçirilir.

Müstəqilliyinin sarsılmaz ifadəsi olaraq türk millətinin qəlbində ən mühüm yer tutan 23 Aprel Milli Suverenlik və Uşaq Bayramı hər il ölkəmizdə və xaricdəki nümayəndəliklərimizdə, bütün qurumlarımızda müxtəlif tədbirlərlə qeyd edilir.

*Yeganə BAYRAMOVA*

# Gənclərin ahəngdar inkişafı üçün!

## Dövlət səviyyəsində addımlar atılır, cəmiyyət də maraqlı olmalıdır...

Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və inkişafı hər bir dövlətin qarşısında duran mühüm məsələlərdən biridir. Bu, ölkənin siyasi və iqtisadi sabitliyindən heç də az əhəmiyyət kəsb etmir. Təəssüf ki, müasir dünyada gənclər öz xalqının tarixi və mədəniyyəti, fəlsəfi və dini irsi haqqında səthi biliklərə malik olduğuna dair bir tendensiya mövcuddur.

Etiraf edək ki, bu gün dünyada gənclərin şüuruna mənfi təsir edə biləcək hadisələr çoxdur. Bunun qarşısını gənc nəslin mənəvi-əxlaqi tərbiyəsi və inkişafı istiqamətində sistemli iş aparmaqla almaq mümükdür. Bu mənada savadlı, əxlaqlı, təşəbbüskar gənc nəslin yetişməsinə nail olmaq inkişaf etmiş dövlətlərin sosial siyasətinin ana xəttini təşkil edir.

## Uşaqlarla rəftarda ifrat dominantlıq düzgün deyil

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti üzrə hazırlanmışdır**

Sosioloq Sahib Altayın “Yeni Azərbaycan”a açıqlamasına görə, uşaqların sosiallaşması, həm fiziki, həm də mənəvi baxımdan əhatəli, normal inkişafı cəmiyyətdəki şərtlərdən çox asılıdır. Sosioloq qeyd edib ki, cəmiyyətdə mövcud olan mühit uşaq və gənclərin sosiallaşmasında birmənalı şəkildə müəyyənedici təsirə malikdir: “Uşaqların ahəngdar fiziki-mənəvi inkişafı üçün ilk növbədə sosiallaşma institutları sağlam olmalıdır. Birinci ailə institutundan başlamaq lazımdır. Sosiallaşma üçün ilk növbədə sağlam ailə mühitinin mövcudluğu vacibdir. Valideyn öz missiyalarını başa düşməli, uşağa mülkiyyəti kimi baxmamalı, onunla aqressiv rəftar etməməlidir. Valideynin hüququ heç də uşaqların mənafeyinə zidd olmamalıdır. Bu, Konstitusiyamızda da, Ailə Məcəlləsində də var. Bütün valideynlərin təhsilli olması vacib deyil. Əsas odur ki, ailə quran cütlüklər valideynlik missiyasını dərk etsinlər, övlada düzgün tərbiyə verməyi bacarsınlar. Uşaqlarla rəftarda ifrat dominantlıq etməməli, uşaqların düşüncələrinə hörmətlə yanaşmalıdırlar. Uşaqlara müstəqil qərar qəbul etmək imkanı vermək lazımdır”.



## Məktəbin missiyası həm də didaktikadır!

S.Altay bildirib ki, uşaq və gənclərin mənəvi, fiziki inkişafında rol oynayan ikinci institut bağçalar, orta və ali məktəblərdir: “Əlbəttə ki, burada da neqativlərdən kənar sağlam mühit olmalıdır. Uşaqların bir-birilərinə qarşı bullinq tətbiq etmələrinə yol verilməməlidir. Çünki o mühitdə hər cür uşaq var. Maksimum çalışmalıyıq ki, dayanıqlı, sağlam ailə mühitinə nail olaq. Amma bu, həmişə mümkün olmur. Bəzən orta məktəblərdə, bağçalarda, şübhəsiz ki, natamam ailələrdən olan uşaqlar olur. Yaxud da mənəvi, mədəni səviyyəsi fərqli ailələrin uşaqları təmsil olunurlar. Çalışmalıyıq ki, natamamlıq kompleksindən əziyyət çəkən uşaqlar öz yaşıdlarına qarşı aqressiya nümayiş etdirməsinlər. Yaxud belə hal baş verərsə, qabaqlayıcı metodlarda qarşısını almaq lazımdır. Ümumiyyətlə, məktəb mühiti sağlam olmalıdır. Bilirsiniz ki, məktəbin missiyası təkcə təhsil vermək deyil, həm də didaktikadır. Uşaqların tərbiyədə ideoloji cəhətdən zəngin böyümələrində məktəbin rolu müstəsnadır”.

## Kriminal aləmin kumir seçilən “qəhrəmanları”...

Sosioloqun sözlərinə görə, sosiallaşma institutu kimi ailədən və məktəblərdən daha öndə təsir imkanına malik olan sosial media, sosial şəbəkələr, internet resurslarıdır: “Sosial şəbəkələr uşaq və gənclərin davranışlarına, həyat tərzlərinə birmənalı olaraq təsir göstərir. Çalışmalıyıq ki, uşaqların zərərli informasiyalardan qorunmasını maksimum təmin edək. Çox yaxşı olar ki, monitorinqlər həyata keçirilsin. Sosial şəbəkə vahidlərinin təsirlərindən uşaqların az zərər görmələri üçün qanunvericilik istiqamətində də addımlar atılmalıdır. “Sarı” informasiyalar, uşaqlara zidd məlumatlar tirajlanır. Cinayət, kriminal aləmin dırnaqarası qəhrəmanları az qala uşaqlara kumir kimi təqdim olunur. Onlar haqqında əfsanələr saytları, qəzet manşetlərini “bəzəyir”. Yeniyetmələr də elə bilirlər ki, cinayət dünyasının adamları düzgün yaşayırlar, deməli, onları kumir seçmək olar. Yaxşı olar, uşaqların ahəngdar inkişafı üçün samballı, məzmunlu, yeniyetmələrə, gənclərə sağlam mesajlar ötürən ədəbiyyat nümunələri olsun. Bununla bağlı təkcə intellektual yox, həm də mənəvi-əxlaqi dəyərləri aşılayan verilişlər olmalıdır. Əslində uşaq və gənclərin inkişafı üçün bölgələrdə də maraqlı infrastrukturlar, idman mərkəzləri yaradılıb. Bunların funksionallığını artırmaq, uşaqların ora gedişini təşviq etmək lazımdır. Hökumət, dövlət səviyyəsində əsaslı addımlar atılır, sadəcə, cəmiyyət özü də maraqlı olmalıdır. QHT-lər bu işdə iştirak etməli, sosiallaşma institutları öz məsuliyyətlərini başa düşməlidir. Cəmiyyətimiz müstəqil cəmiyyət kimi qlobal dünyaya inteqrasiya olunub. Filtirizasiya aparılmalıdır ki, mənəvi-əxlaqi düzənimiz pozulmasın, cəmiyyətimizin müsbət özəllikləri qorunub saxlanılsın”.

*Səlim*

# 40 yaşdan əvvəl...

## Alsheymer risk faktorlarının idrak funksiyasına erkən təsiri aşkarlanıb

“The Lancet Regional Health - Americas” jurnalında dərc olunan yeni tədqiqat Alsheymer xəstəliyinin risk faktorlarının düşündüyümüzdən daha erkən yaş dövrlərində idrak funksiyası ilə əlaqəli olduğunu göstərib.

AZƏRTAC “MedicalXpress” portalına istinadla xəbər verir ki, Kolumbiya Universitetinin Mailman İctimai Sağlamlıq Məktəbi və Butler Yaşlanma Mərkəzi tərəfindən aparılan bu araşdırma 24-44 yaş arası fərdlərdə Alsheymer xəstəliyi ilə əlaqəli biomarkerlərlə idrak arasında statistik əhəmiyyətli əlaqələr taparaq profilaktik müdaxilələrin erkən mərhələlərdə aparılmasının zəruriliyini vurğulayır.

Tədqiqatın aparıcı müəllifi, epidemiologiya professoru Allison Aiello bildirib ki, Alsheymer xəstəliyinin risk faktorları ilə bağlı mövcud elmi yanaşmalar əsasən 50 yaşdan yuxarı fərdlərə yönəlmişdi. Lakin yeni nəticələr ürək-damar sağlamlığı, ATN (amiloid, tau, neyrodegenerasiya) biomarkerləri və immun göstəricilər kimi Alsheymer xəstəliyi risk faktorlarının 40 yaşdan əvvəl də idrak funksiyaları ilə əlaqəli olduğunu göstərir. Tədqiqat ABŞ-da 1994-1995-ci illərdən bəri davam edən və genişmiqyaslı məlumat toplayan “Add Health” adlı uzunmüddətli kohort araşdırmasının IV və V dalğalarından əldə edilən məlumatlara əsaslanır. Araşdırmada IV Dalğa üzrə 24-34 yaşlı 11 min 449 iştirakçıdan və V Dalğa üzrə 34-44 yaşlı fərdlərdən ibarət məlumatlar təhlil edilib. İştirakçılarla evdə müsahibələr, koqnitiv testlər və fiziki müayinələr aparılıb, eyni zamanda, 4507 nəfərdən qan nümunələri toplanıb. V Dalğada isə əlavə olaraq 1112 nəfər dərhal və gecikmiş söz yaddaşı, rəqəm seriyasını geriyə doğru xatırlama kimi testlərdən keçib. Tədqiqatçılar Ürək-damar Risk Faktorları, Yaşlanma və Demensiyanın İnsidansı (CAIDE) hesabından istifadə edərək koqnitiv nəticələrlə müxtəlif risk faktorları arasındakı əlaqələri analiz ediblər.

Məlum olub ki, yüksək CAIDE balı olan iştirakçılar arasında idrak funksiyaları daha zəif qiymətləndirilib. Bu isə sübut edir ki, ürək-damar risk faktorları Alsheymer əlaqəli koqnitiv pozulmaların təməlini çox erkən yaş dövrlərində qoya bilər. Bundan əlavə, ATN biomarkerləri və immun göstəricilər - amiloid zülalı, tau zülalı və neyrodegenerasiya markerləri - orta yaşdan əvvəl idrak funksiyası ilə əhəmiyyətli dərəcədə əlaqələndirilib. Maraqlı olaraq, əsas genetik risk faktoru kimi tanınan APOE ?4 alleli bu yaş qrupunda təsirli olmamış və yalnız daha yaşlı yaş dövrlərində əhəmiyyət kəsb edə bilər. Professor A.Aiello bildirib ki, bu tapıntılar Alsheymer xəstəliyinin profilaktikasında həyat boyu strategiyaların əhəmiyyətini vurğulayır: “Alsheymerə səbəb olan dəyişikliklər klinik əlamətlər ortaya çıxmazdan onilliklər əvvəl başlayır. Bu səbəblə erkən diaqnostika və müdaxilə gələcək nəsillərdə xəstəliyin yayılmasının qarşısını almaq üçün həyati əhəmiyyət daşıyır”.



Araşdırmanın həmmüəllifləri arasında Şimali Karolina Universiteti və Kolumbiya Universitetinin tədqiqatçıları yer alıb. Bu iş Alsheymer xəstəliyinin erkən mərhələlərini anlamaq və müdaxilə yollarını müəyyən etmək üçün əhəmiyyətli bir addım hesab olunur.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4949**
**Sifariş: 843**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova